

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

### "Qarabağ" dastanının "Füzuli" boyu




8

№ 190 (6873)

SƏS

18 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

## Vədinə və andına əməl edən LİDER!



9

# Müstəqil və suveren Azərbaycanın reallıqları

18 Oktyabr müstəqilliyimizin bərpası günündən 32 il ötür




6

### Yoxsul və ac dünya: ehtiyac hər gün artır



15

### Qorxaqlar cəsarətli ola bilmir



14

### Qazilərimiz sağlam həyata qayıdır



7

### "Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt başqa ölkələrin ərazisinə iddia etməyib"



4

### Neymardan təhdid: Braziliya millisinin oyunlarını boykot edəcəm!



16

# Böyük Qayıdışını yaşayan Füzulimiz

## Prezident İlham Əliyev: "2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq"

Üç il bundan əvvəl tarixin bu günü Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev 17 oktyabr 2020-ci il tarixində xalqa müraciətində "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"- deyə bildirmişdir. Cənab Prezident onu da bildirmişdir ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərinn işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi: "Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir".

Əlbəttə ki, Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzulinin 27 illik həsrətinə son qoyuldu. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulmuşdur.

### FÜZULİ ŞƏHƏRİNDƏ ÜÇÜNCÜ YAŞAYIŞ KOMPLEKSİNİN TƏMƏLİ QOYULDU

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə, eləcə də Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi, çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin Füzuliyə səfəri çərçivəsində oktyabrın 16-da Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub. Üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq. Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Füzuli şəhərində dövlət başçısı tərəfindən inzibati binanın da təməli qoyulub. İnzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli qaynar dövrünü yaşayır. Böyük Qayıdış çərçivəsində əzəli sakinlər doğma yurduna qayıdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Füzuli abadlaşır və yenidən qurulur. Füzuli Beynəlxalq Hava Limanının 2021-ci il yanvarın 14-də təməlinin qoyulması və 2021-ci il oktyabrın 26-da açılışı buradakı görülən işlərin əyani təzahürüdür. Cəmi 9 ay ərzində müasir standartlara cavab verən beynəlxalq hava limanının inşa edilib istifadəyə verilməsi və bu layihənin tam dağıdılmış, heç bir adi infrastrukturu belə olmayan bir ərazidə həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinini göstərisicidir.

### "GÜN GƏLƏCƏK, SİZ MƏNƏ "XOŞ GƏLMİSİNİZ!" DEYƏCƏKSİNİZ VƏ BU GÜN GƏLDİ"

Füzuliyə köç karvanları davamlı olaraq yol alır. Cənab Prezident Füzuliyə səfəri zamanı oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. "Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür".

Bu gün Azərbaycan gənci qururludur. Üzərinə düşən ən böyük məsuliyyəti dərk edərək işğal altında olan torpaqlarımızı qanı, canı bahasına azad etdi. Minlərlə gəncimiz vətən torpaqlarının azadlığı uğrunda şəhid oldu. Son damla qanlarına qədər qəhrəmancasına vuruşdular. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. "Gənc nəsil də - füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu, doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməyiblər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq", - deyə Prezident bildirib.. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər. Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər gənclərdir. Vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayandı. Cənab Prezidentin bildirdiyi kimi, "Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər".





### "FÜZULİNİN YENİ SİMASI GÖZ OXŞAYIR"

Bu gün Qarabağda, Şərqi Zəngəzurda böyük quruculuq işləri aparılır. "Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır. Füzulinin yeni siması göz oxşayır. Onu da bildirməliyəm ki, bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edir".

### "QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA 140 MİN İNSAN YAŞAYACAQ"

Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı layihələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. "Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni, Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin abhavasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir", - deyə Prezident qeyd edib.

Bu gün Füzuli tamamilə yenidən qurulur. Artıq bu əraziyə 800-dən çox insan artıq yerləşib. D vlət başçımız bildirib ki, ilin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Müharibədən çıxmış bir dövlət qısa zamanda Böyük Qayıdışın təntənəsini yaşadı. Bu gün işğaldan azad olunan ərazilərimizdə böyük abadlıq, quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər əzəli sakinləri qoynuna alır.

***Zümrüd BAYRAMOVA***

# Uğurlu diplomatiyanın, səbirin, hərbi qüdrətin növbəti ZƏFƏRİ!

PREZİDENT İLHAM ƏLİYEV Xankəndi şəhərində Azərbaycan Bayrağını ucaldaraq xalqa tarixi müraciətini etdi



Artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. Artıq ərazi bütövlüyümüz tam bərpa olunub. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Xüsusilə də, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı "Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir.

## UĞURLU DİPLOMATİYANIN, SƏBİRİN, HƏRBİ QÜDRƏTİN NÖVBƏTİ ZƏFƏRİ - PREZİDENT İLHAM ƏLİYEV XANKƏNDİDƏ AZƏRBACAN BAYRAĞINI QALDIRDI

Bəli, işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasəti ilə 44 gün davam edən və Azərbaycanın tam Qələbəsi ilə nəticələnən Vətən müharibəsi qələbə ilə başa çatdı. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq... Uzun illərdən sonra işğaldan azad olunan torpaqlarımızda Ali Baş Komandan, Prezident İlham Əliyev üçrəngli Şanlı Bayrağımız ucaldıldı.

Oktyabrın 15-də Azərbaycan Prezidenti növbəti işğaldan azad olunan torpaqlarımızda - Xankəndidə, Xocavənddə, Əsgəranda, Xocalı şəhərində, Sərsəng su anbarının ərazisində, Xankəndi şəhərinin mərkəzində Azərbaycan Bayrağını ucaltdıqdan sonra xalqa tarixi müraciətini etdi. Və bildirdi ki, iyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın: "Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq".

## "BİZ ORDUMUZLA, SİLAHLI QÜVVƏLƏRİMİZLƏ FƏXR EDİRİK, ONLAR BİZİM QÜRUR MƏNBƏYİMİZDİR"

Azərbaycan Prezidenti xalqa etdiyi tarixi müraciətində onu da bildirdi ki, bu gün Xankəndidə olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq"."Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir",-deyən dövlət başçımız onu da vurğuladı ki, biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir: "Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".Bəli, bu gün böyük qürur hissi keçiririk ki, son 20 ildə əldə etdiyimiz bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Bu, həmdə bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz!

## "MƏN O VAXT DEMİŞDİM Kİ, NƏYİ, NECƏ, NƏ VAXT ETMƏK LAZIMDIR, ONU MƏN BİLİRƏM"

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxşlarında bildirir: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm". Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi.

Bu yerdə Prezident, Ali Baş Komandan İlham Əliyev üç il əvvəl, 2020-ci il iyulun 15-də Nazirlər Kabinetinin iclasında Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində düşmənin törətdiyi hərbi təxribatın qarşısının alınması ilə bağlı çıxışını xatırlatmaq istərdim: "O ki qaldı bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm... Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik".

Bəli, sözü imzası qədər dəyərli və keçərli olan Azərbaycan Prezidenti İlham Əliyev Xankəndidən xalqa etdiyi tarixi müraciətində də bir daha 2020-ci il noyabrın 10-da nə üçün o vaxt müharibəni dayandırmaqla bağlı fikrini aydın şəkildə bir daha bildirdi: "Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt - noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır".

## "BİZ HEYDƏR ƏLİYEVİN 100 İLLİYİNİ ONUN SİYASƏTİNƏ, TARİXİ İRSİNƏ HÖRMƏT GÖSTƏRƏRƏK QEYD EDİRİK"

"Bu il "Heydər Əliyev İli"dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik".Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib.Ulu Öndərin yubileyləri ilə bağlı xatirələrini bölüşən dövlətimizin başçısı qeyd edib: "Mən Ulu Öndərin ad gününü (100 illiyini - red.) Şuşada keçirdim. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə, - artıq sağlamlığı o qədər də yerində deyildi, - Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim".

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım böyük rəmzi məna daşıyır.Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən səsləndirib: "Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən bütün Azərbaycan xalqıdır, onların davamçılarıdır. Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır".

## AZƏRBAYCAN XALQININ ONİLLİKLƏR ƏRZİNDƏ OLAN ARZULARINI ÇİN ETDİK

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləyib ki, özünü "prezident" adlandırmış üç təlxək bax, burada (Xankəndidə - red.) oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq: "Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl - 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il", - deyən dövlətimizin başçısı xatırladıb ki, üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı.

Prezident İlham Əliyev, həmçinin bildirib: "Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik"."Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası - red.) oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir",-deyən dövlətimizin başçısı bildirib: "Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!".

Prezident İlham Əliyev sonda bir daha qürurla bildirdi ki, Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik: "Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***RƏFİQƏ KAMALQIZI***

# ”Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt başqa ölkələrin ərazisinə iddia etməyib”



**Oktyabrın 17-də Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentinin sessiyası zamanı səsləndirdiyi bəyanat, növbəti dəfə bu ölkənin Azərbaycana qarşı təcavüzkar ritorika və ittihamları davam etdirərək sülh sazişi ilə bağlı perspektivləri daha da sarsıtmaqda qərarlı olduğunu nümayiş etdirdi.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin N.Paşinyanın Avropa Parlamentində çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

Şərhdə deyilir: ”Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarından əl çəkmədiyi bir vaxtda özünü sülhsevər, demokratik, beynəlxalq hüquqa hörmət edən ölkə kimi təqdim edən Ermənistandan bu cür iddiaları eşitmək təhqiramizdir.

30 ilə yaxın müddət ərzində bir milyona qədər azərbaycanlının fundamental hüquqlarını pozan, azərbaycanlılara qarşı soyqırımı və kütləvi qırğınlar törətmiş bir ölkə olan Ermənistanın Azərbaycanı könüllü olaraq Ermənistana getmiş yerli ermənilərin ”etnik təmizləmə-si”ndə ittiham etməsi əsassız olmaqla yanaşı, regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə açıq şəkildə ziddiyyət təşkil edir. Bu, həmçinin 21 sentyabr tarixində Ermənistan ictimaiyyətinə müraciətində Qarabağ bölgəsindəki erməni sakinlərin təhdidlərlə üzləşmədiyini bildirən Ermənistan baş nazirinin bəyanatlarının bir-biri ilə nə qədər uyğunsuz olduğunu nümayiş etdirir. Eyni zamanda, Ermənistanın tarixin və faktların açıq şəkildə saxtalaşdırılmasında nə qədər məşhur olduğu diqqətə alındıqda, sözügedən ölkənin baş nazirinin bu cür ziddiyyətli açıqlamalarını eşitmək təəccüb doğurmur.

Qranada görüşünün yekun sənədindəki müstəqillik, suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, güc tətbiq edilməməsi və güc təhdidindən imtina prinsiplərinə istinad edən baş nazir Nikol Paşinyan, Ermənistanın bu prinsipləri baş nazirin hakimiyyətdə olduğu 5 il də daxil olmaqla 30 ildən artıq müddətdə pozmasına baxmayaraq, 44 günlük müharibədən dərhal sonra məhz Azərbaycanın Ermənistana 5 baza prinsipi təqdim etdiyini unudur. Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycana qarşı təcavüz törətdiyini və ərazilərimizi işğal etdiyini diqqətə alındıqda, Ermənistan baş nazirinin ərazi bütövlüyünə və delimitasiyaya hörməti kvadrat kilometrlə ölçməyə çağırış etməsi ciddi deyil. Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt başqa ölkələrin ərazisinə iddia etməyib.”

# MEDİA Bişkekdə TDT-nin 5-ci toplantısında iştirak edib




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 5-ci toplantısında iştirak edib. Bu barədə SİA-ya Agentlikdən bildirilib. Qeyd edilib ki, toplantıda çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, müştərək tariximiz, mənəvi dəyərlərimiz sağlam bünövrə üzərində dayanmış əməkdaşlığımızın inkişafına, cəmiyyətlərimizin maarifləndirilməsi və qarşılıqlı etimadın artırılmasına ciddi stimul verməkdədir.

Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyasının dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran Əhməd İsmayılov ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi, həmçinin Qazaxıstan Respublikası İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumlarının müstəsna rolunu qeyd edərək vurğulayıb ki, media məkanında milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, təcrübə mübadiləsinin genişləndirilməsi, o cümlədən media sahəsində qarşılıqlı əlaqələrin yaradılması əsas məqsədlərimizdəndir. İcraçı direktor çıxışında türkdilli ölkələrə dair məlumatların beynəlxalq auditoriyaya operativ və düzgün formada çatdırılması üçün Türk Dünyasının jurnalistləri arasında həmrəyliyə ehtiyac olduğunu qeyd edib, dövlətlərimizin yerləşdiyi coğrafiyanın həqiqətlərinin işıqlandırılması və obyektiv informasiya təminatının həyata keçirilməsi üçün peşəkarlığın və sayıqlığın artırılmasının vacibliyini diqqətə çatdırıb.

# Ermənistan mətbuatı Tofiq Yaqubludan yazdı



Azərbaycan siyasi arenasında dağıdıcı müxalifət olaraq tanınan AXCP, ”Milli Şura” kimi qurum rəhbərlərinin cəmiyyət tərəfindən qəbul edilməməsi onların yanlış və səhv siyasət aparmaları ilə bağlıdır. Buna baxmayaraq, üzdəniraq məxluqlar öz məkrli və çirkin siyasətlərindən əl çəkmirlər. Bu amil onların qarşısında xarici ağaları tərəfindən geri dönüşü mümkün olmayan tələb qoymalarından irəli gəlir. Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli və digərləri xarici maraqlı dairələrin tələbi qarşısında boyunlarını tükdən də incə hesab edərək, verilən göstərişlərə uyğun fəaliyyət yolu tuturlar. Gah milli dəyərlərimizi təhqir edir, gah da xalqın mənafeyinə zidd açıqlamalar verirlər. Bütün bunlar onu təsdiq edir ki, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli və digərləri üçün inkişaf edən Azərbaycan, dövlətçiliyə sədaqətli olan qalib xalq görmək ağır dərddir. Onlar ölkəmizin uğurlarını görəndə qəm-qüssəyə qərq olurlar, yasa batırlar.

### Sabah Tofiq Yaqubluya erməni lobbisi tərəfindən mükafat təqdim olunsa, təəccüblü görünməyəcək

Bu gün millət olaraq qürurluyuq, fəxarət hissi keçiririk. Qarabağımız azadlığına qovuşub, Xankəndidə, Xocalıda, Əsgəranda, Şuşada, Qubadlıda, Ağdərədə və digər ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Dostlar sevinir, düşmən isə xar olub. Təəssüf ki, bu qürurlu anlarda dağıdıcı müxalifət düşmən mövqedə dayanıb, xalqımızın milli ruhuna kölgə salmağa xidmət edən açıqlamalar verir, statuslar paylaşırlar. 44 günlük Vətən müharibəsinə qədər ” torpaqlarımızın azadlığı mümkün olmayacaq”, - deyən Ə.Kərimli, T.Yaqublu, C.Həsənli elə ki, ərazi bütövlüyümüz bərpa olundu və aprelin 23-də Laçında kömrük postu və sərhəd keçid məntəqəsi quruldu, başladılar ”Qələbə yarımçıqdır” deyə mənasız və cəfəng fikirlər səsləndirməyə. Utanmaz məxluqlar bu istiqamətdə bir xeyli vay-şivən qopartdılar. Lakin bu anormal fəaliyyətdə uzun çəkmədi. Onlara daha bir sərt şillə 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə bölgədəki bütün terrorçu hərbi birləşmələri məhv edilib, əksər separatçı başların həbs edilərək istintaqa təhvil verilməsi ilə oldu. Oktyabrın 15-də isə Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev Xanın kəndinə gələrək xalqa müjdəli müraciət etdi və əzəmətli binanın qarşısında Azərbaycanın üçrəngli bayrağını ucaltdı. Bu qürurverici anları dünyanın əksər televiziyaları yayımladı, mətbuatları işıqlandırdı, dostlar millətimizə təbrik məktubları ünvanladılar. Yenə də Ə.Kərimli, T.Yaqublu, C.Həsənli eyni ilə hazırda müxtəlif yollarla Ermənistana qaçıb orada separatçı açıqlamalarla çıxış edən Samvel Babayan kimi fikirlər səsləndirirlər. Hansı mənsəbə və əqidəyə qulluq etdiyi uzun müddətdir ki, bəlli olmayan T.Yaqublu həyasızcasına iddia edir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun zərbələri nəticəsində Xankəndidə mülki əhali də vurulmuşdu. Halbuki belə hallar olmayıb. BMT-nin missiyası Xankəndi olub və yaydığı hesabatında şəhərin mülki binalarına və dinc sakinlərinə zərər verilmədiyi qeyd olunub. T.Yaqublu isə Koçaryanın əmisi uşaqları kimi böhtan xarakterli açıqlamalarla çıxış edir. Görünür, bu məxluqun ya qələbənin əldə olunmasından dərin stress keçirdiyindən beynində sapmalar yaranıb, ya da ki Sarkisyanın bağlı olduğu mərkəzlərdən xüsusi tapşırıq alıb. Çünki inandırıcı deyil ki, ağılı başında olan hansısa azərbaycanlı öz ordusuna və nəhayət, millətinə şər atar. Faktın ortada olması onu göstərir ki, T.Yaqublu həqiqətən də ermənilərə bağlı şəxsdir. Bu versiyanı təsdiq edən amillərdən biri də T.Yaqublunun vaxtaşırı Ermənistanın Koçaryana və Sarkisyana bağlı mətbu orqanlarında ermənipərəst mövqeyinə görə alqışlanması və haqqında tərifli sözlər yazılmasıdır. Sabah T.Yaqubluya mükafat təqdim olunsa, təəccüblü görünməyəcək. Çünki çəkdiyi zəhmətinin haqqı erməni lobbisi tərəfindən ödənilir.

### Əli Kərimli xəcalət hissini itirib

AXCP sədri Ə.Kərimli Toplum Tv-yə müsahibəsində erməni revanşistlərindən heç nə ilə fərqlənmədiyini nümayiş etdirir. Deyir ki, ”bu məsələni həll etmək niyə 30 il çəkdi”. Açıq şəkildə aparıcıların Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan parlaq qələbəyə uyğun mövqelərinə və suallarına qısqanclıqla yanaşır, iynəli cavablar verir. Müsahibənin ruhundan hiss olunur ki, Ə.Kərimli aparıcılardan gözləmədiyi sərt şapalaq alır. Əsəbi və gərgin olduğu və qınayan olmasa aparıcıları təhqir edər, onları qınayar. Bu kimi hallar onu deməyə əsas verir ki, Qarabağın işğaldan azad edilməsi Fransa, fars-molla rejimi və Ermənistan qədər Ə.Kərimli, T.Yaqublu və C.Həsənli üçün də böyük faciədir. Çünki onlar Qarabağın işğalda qalmasını və qaçqın, köçkünlərin ağır, çətin şəraitdə yurd həsrəti ilə yaşamalarını arzu edirdilər. İkinci isə ”nəyi, necə və nə vaxt etməyi” yalnız Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev bilir. Ona görə də, Prezidentimiz torpaqlarımızın azad edilməsini 2020-ci il sentyabrın 27-ni daha uyğun zaman hesab etdi, vədini və andını da o gündən başlayaraq həyata keçirdi. Torpaqlarımızın azadlığı həsrətinə dünən və ya sabah son qoyula bilərdi. Lakin Cənab Prezidentimiz müdirik və uzaqgörən siyasəti ilə 2020-ci il 27 sentyabrdan başlayan hərəkatı 2023-cü il oktyabrın 15-də Xankəndidə üçrəngli bayrağımızı ucaltmaqla yekunlaşdırdı. Bu qələbəni qiymətləndirmək və dəyərləndirmək hər bir azərbaycanlının borcudur. Eyni zamanda, parlaq qələbə sevincini yaşamaq 80 milyonluq dünya azərbaycanlılarının haqqıdır. Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri əldə olunan uğurlardan və qazanılan qələbədən məyusdurlarsa, deməli, onlar erməni düşüncəsində və təfəkküründə olan məxluqlardır.

***İ.ƏLİYEV***



# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il oktyabr ayının 17-də YAP Kürdəmir rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Kürdəmir rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# KTMT-Ermənistan tərəfdaşlığına son



Qırğız Respublikasında çox önəmli siyasi hadisələr baş verməkdədir. Hadisələrin bu cür inkişafı MDB-nin, hətta KTMT-nin sonunu da gətirə bilər, yaxud bu ittifaqlarda dərin islahatları tezləşdirər. SSRİ-nin varlığında əsas rol oynayan 15 respublikanın hələlik yarıdan çoxu yeni birlikdə - MDB-də təmsil olunurlar. Baltikyanı ölkələr Sovetlərə gec birləşdikləri kimi, tez də bu qurumu tərk etdilər. Gürcüstan separatçı "respublikalar" səbəbindən Rusiya ilə əlaqələrini kəsmək qərarına gəldi və 2008-ci ildən başlayaraq qurumdan uzaqlaşma yolunu tutdu. Ukrayna da son hadisələrdən bir az əvvəl - 2014-cü ildən başlayaraq vidalaşma yolunu tutub və Qərbdə özünə dost axtarır. Moldova da oxşar taleni yaşayır. Sonuncu "təxribatçı" ölkə olmağa namizəd hələlik Ermənistandır. Azərbaycanla 44 günlük müharibədə məğlub olmasının ən başlıca səbəb kimi KTMT-yə üzv ölkələrin İrəvana birbaşa yardım etmədiyini səbəb kimi gətirən Ermənistan da Qərbə tərəf boylanmaqdadır.



Qırğızıstanın baş kəndi Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclası keçirilir. Ermənistan hələ də qurumun üzvü olsa da tədbirə qatılmayıb. Səbəb Rusiya ilə aralarındakı problemlər göstərilir. Amma uzun müddət Rusiya ərazisini tərk etməyən, beynəlxalq tədbirlərə qatılmayan Rusiya prezidenti Vladimir Putin Bişkek gtoplantısında iştirak edir. Putin Azərbaycan Prezidenti ilə görüşlər keçirib, fikir mübadiləsi aparıb. Hətta Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Ermənistan və Azərbaycanı üçtərəfli sammitə dəvət etmək niyyətindədirlər. Bildirib ki, yaxın vaxtlarda onun keçirilməsi tarixlərinin razılaşdırılması planlaşdırılır.

"Biz növbəti sammitin üçtərəfli formatda Rusiya, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə keçirilməsini təklif edəcəyik və ümid edirik ki, yaxın gələcəkdə onun keçirilmə tarixlərini razılaşdıra biləcəyik", - deyə cənab Uşakov bildirib. O, həmçinin Birləşmiş Ştatlar və Avropa İttifaqını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesinə soxulmaqda çalışmaqda və "ən yaxşı təcrübələrimizdən" istifadə etməkdə ittiham edib.

Rusiya prezidenti Vladimir Putin isə bildirib ki, Moskva Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına, o cümlədən Moskvada danışıqların təşkilinə yardım etməyə hazırdır. "Xüsusən, biz lazım gələrsə, istənilən formatda Moskvada danışıqların təşkili ilə razıyıq. Azərbaycan və Ermənistanın xarici işlər nazirləri və ekspertləri arasında danışıqlara başlanmalıdır", - prezident deyib.

Putinin sözlərinə görə, "uzun müddətdir davam edən münaqişəyə nəhayət son qoymaq" üçün sazişlərin hazırlanması gündəmdədir. O bildirib ki, Azərbaycan prezidenti İlham Əliyevlə Bişkekdə baş tutan görüşdə digər məsələlərlə yanaşı, Qarabağ münaqişəsinin həlli məsələlərini də müzakirə ediblər. Vladimir Putinin əlavə edib ki, Qarabağdakı rus sülhməramlıları, öz öhdəliklərini "vicdanla yerinə yetiriblər". Onlar Ermənistan və Azərbaycan ilə 2020-ci il noyabrın 9-da imzalanmış üçtərəfli sazişlərə əsasən Qarabağ ərazisində yerləşirlər. Sülhməramlıların regionda qalma müddəti 5 ildir və onların vəzifəsi atəşkəsə nəzarət etməkdir. Oktyabrın 6-da Rusiya Müdafiə Nazirliyi üç sülhməramlı postun bağlandığını elan edib. Eyni zamanda, əvvəllər də bildirildiyi kimi, hələlik onların regiondan çıxarılması nəzərdə tutulmayıb.



Sentyabrın 19-da Azərbaycan "antiterror tədbirləri"nə başlayıb və nəticədə 2024-cü il yanvarın 1-dən Dağlıq Qarabağın mövcudluğu dayandırılıb.

Qeyd etdiyimiz kimi, Rusiya prezidenti Vladimir Putin oktyabrın 12-də Qırğızıstanda keçirilən MDB dövlət başçılarının iclasına gəlib. Rusiya Federasiyasının rəhbərinin xaricə bu səfəri 2023-cü ilin martından, Beynəlxalq Haaqa Məhkəməsinin onun həbsinə order verdiyi vaxtdan bəri ilk dəfə baş verib. Putin Bişkekdə Rusiya Federasiyasının Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) çoxdankı müttəfiqlərindən biri, MDB sammitinə məhəl qoymayan və əvvəllər Roma Nizamnaməsinin ratifikasiyasını təşviq edən Ermənistanın baş naziri Nikol Paşinyanın nümayəndəsi ilə görüşməyib. Ermənistan parlamentinin bu addımı Rusiya Federasiyasında qeyri-dost addım kimi qəbul edilib.

Vladimir Putin cümə axşamı Birlik ölkələrindən olan həmkarları ilə ikitərəfli danışıqlar aparıb. O, təkcə Qırğızıstan rəhbəri Sadır Japarovla deyil, Azərbaycan prezidenti İlham Əliyevlə də görüşüb. Rusiya Federasiyası və Azərbaycan başçıları arasında ünsiyyət üçün mühüm mövzu Azərbaycan qüvvələrinin Qarabağda Rusiya sülhməramlıları ilə qarşılıqlı əlaqəsidir.

Rusiya hərbçiləri hazırda Qırğızıstanda KTMT ölkələrinin sülhməramlı kontingentlərinin "Sarsılmaz Qardaşlıq - 2023" birgə təlimlərində iştirak edir, fəal mərhələsi bu həftə Qırğızıstanın "Edelveys" poliqonunda başlayıb. Cümə axşamı səhər Bişkekə gələn Putin Rusiyanın Kantdakı hərbi bazasının 20-ci ildönümünün qeyd edilməsində iştirak edib, həmçinin təlimlərin gedişi ilə bağlı hesabatı dinləyib. Cümə günü o, Azərbaycan, Belarus, Qırğızıstan, Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistan prezidentləri ilə birlikdə MDB dövlət başçılarının sammitində iştirak edib.

2003-cü ildə Sovet qarnizonundan çıxan Rusiyanın Kant aviabazası KTMT-nin Mərkəzi Asiya regionunun Kollektiv Çevik Yerləşdirmə Qüvvələrinin (CRDF) aviasiya komponentidir. "Bu hərbi forpost respublikanın müdafiə qabiliyyətinin gücləndirilməsinə, bütün Mərkəzi Asiya regionunda təhlükəsizliyin və sabitliyin təmin edilməsinə, terrorizm, ekstremizm, narkotik ticarəti və mütəşəkkil cinayətkarlıq kimi kəskin çağırış və təhdidlərə qarşı mübarizəyə mühüm töhfə verir", deyə məlumatda deyilir.

KTMT-nin qərargahından verilən rəsmi məlumatlara görə, oktyabrın 12-də CRRF təlimlərində iştirak edən Kant aerodromundan Su-25, Su-30 döyüş təyyarələri və Mi-8, Mi-17 və Mi-24 helikopterləri havaya qalxıb. Cümə axşamı onların "regionda sülhməramlı əməliyyatlar zamanı KTMT bölmələrinin praktiki bacarıqlarının təkmilləşdirilməsi" ilə bağlı yekun mərhələsi olub. Manevrlərdə Rusiya Federasiyası, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan sülhməramlı qüvvələrinin milli kontingentindən 1500-ə yaxın hərbi qulluqçu və 200-dən çox zirehli texnika iştirak edib. "Sarsılmaz Qardaşlıq - 2023" manevrlərinin birgə mətbuat mərkəzindən verilən məlumata görə, İssık-Kul gölünün sularında ilk dəfə döyüş qayıqlarından istifadə edilib və əməliyyatlar həyata keçirilib. Təlimin planına əsasən, gölün sahil sularında patrul xidmətinə akvatoriya mühafizə gəmiləri qrupundan 6 kater, o cümlədən RVK-1328 "Vitse-Admiral Temirov" dalğıc kateri cəlb edilib".

2023-cü ilin sentyabrında "Döyüş Qardaşlığı - 2023" təlimlərinə ermənilər razılıq verməmədilər, üstəlik ABŞ nümayəndələri ilə oxşar sülhməramlı təlimlər keçirdilər. Paşinyan MDB dövlət başçılarının cümə günü keçiriləcək sammitində də iştirak etmədi. Rusiya Federasiyası Prezidentinin köməkçisi Yuri Uşakov Paşinyanın Bişkekdə olmamasının səbəbini onların nə olduğunu açıqlamadan "müəyyən hallar"la izah edib.

Azərbaycan Prezidenti İlham Əliyev də buna özünəməxsus şəkildə reaksiya verib. Oktyabrın 11-də Birlik ölkələrinin Təhlükəsizlik Orqanları və Kəşfiyyat Xidmətləri Rəhbərləri Şurasının iştirakçıları qarşısında çıxış edərək xatırladıb ki, "Ermənistanın baş naziri Qranadaya 6 saat uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə olunduğu anlaşılmaz görüşdə iştirak edir və Bişkekə iki-üç saat uça bilmir".

Uşakovun sözlərinə görə, Rusiya-Azərbaycan sammitində digər əsas mövzularla (iqtisadi, humanitar və s.) bərabər Rusiya sülhməramlılarının gələcək fəaliyyəti müzakirə olunub. "Sülhməramlı kontingentimizin mandatı 2025-ci ilin dekabrında başa çatır və kontingentimizdən gələcəkdə mümkün istifadənin müxtəlif variantları nəzərdən keçiriləcək", - deyə Uşakov bildirib.

Rusiya Müdafiə Nazirliyinin oktyabrın 12-də verdiyi məlumata görə, Qarabağdakı qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi və ləğvi ilə əlaqədar Əsgəran, Şuşa, Xocavənd və Ağdərədən Rusiya sülhməramlılarının 6 müşahidə məntəqəsi və 15 müvəqqəti müşahidə məntəqəsi 2023-cü il sentyabrın 19-dan bağlanıb. Bununla belə, Rusiyanın "mavi dəbilqələr"inin Qarabağdakı əsas hissəsi fəaliyyətini davam etdirir. Moskva nümayiş etdirir ki, sülhməramlı kontingentini geri çəkmək niyyətində deyil. Oktyabrın 5-də Soçidə "Valday" klubunun iclasında Putin deyib: "Rusiya Qarabağ ermənilərinə kömək etməyə davam edəcək, çünki onlar öz evlərinə qayıda bilərlər. Paşinyan bu yaxınlarda demişdi ki, "Qarabağdakı rus sülhməramlıları bölgəni tərk edərlərsə, o zaman onlar Rusiya Federasiyasına qayıtmalıdırlar, Ermənistana yerləşdirilməməlidirlər".





Hərbi ekspertlər də hesab edirlər ki, Paşinyan nəhayət, Moskva ilə əlaqəni kəsmək istəyir və indi Qarabağda və Ermənistanda baş verən bütün bəla və münaqişələrdə Rusiyanı günahlandırır. Bu, ABŞ-ın dəstəyi ilə həyata keçirilir. Qərb Paşinyanın köməyi ilə Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir. Popovun sözlərinə görə, İrəvan KTMT-nin potensialından məqsədli şəkildə Cənubi Qafqazda Qərbin mövcudluğuna yol vermək üçün istifadə etmir. Bu, artıq İrəvanın KTMT missiyasının münaqişə zonasında və Ermənistanda yerləşdirilməsinə razılıq verməkdən imtinasında özünü göstərib və səmərəsiz Aİ missiyasının xeyrinə seçimini edib. Onun üçün NATO ölkələri, o cümlədən Fransa hazırda onun ən yaxşı dostudur.

***V.VƏLİYEV***




# Müstəqil və suveren Azərbaycanın reallıqları

## 18 Oktyabr müstəqilliyimizin bərpası günündən 32 il ötür

Oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 32 ili tamam olur. Azərbaycan xalqı artıq bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. 32 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü kimi qeyd olunur. 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi qeyd olunur.

Müstəqilliyinin ilk illərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir, bizim böyük bayramımızdır", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyinin bərpasına Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.

XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizin tarixində həlledici məqam oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi,_Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı: "Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı".

### "1993-2003-CÜ İLLƏRDƏ DÖVLƏTÇİLİYİMİZİN ÇOX MÖHKƏM ƏSASLARI QOYULDU"

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi.

1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı. "1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi" - deyə Prezident bildirib.

### "ÖLKƏMİZ BU GÜN NƏHƏNG REGİONAL VƏ QLOBAL LAYİHƏLƏRİN TƏŞƏBBÜSKARI VƏ FƏAL İŞTİRAKÇISIDIR"

Bu gün Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır... Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır."

### "İKİTƏRƏFLİ ƏLAQƏLƏR İNKİŞAF EDİR, BİZ DÜNYADA DAHA ÇOX DOSTLAR QAZANIRIQ"

Ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var".

Dövlət başçısının dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Vurğulamaq yerinə düşər ki, Azərbaycan diplomatiyasının uğurları yalnız BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla da sıx əlaqə yaratmasına imkan verib. Bu sırada Azərbaycanın İslam Konfransı Təşkilatı, GUAM və digər tanınmış beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi xüsusi qeyd olunmalıdır.

Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərini səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır.

### "XALQ-İQTİDAR BİR YUMRUQ KİMİ BİRLƏŞDİ VƏ CƏMİ 44 GÜN ƏRZİNDƏ BİZ İSTƏDİYİMİZƏ NAİL OLDUQ"

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər 31 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir.

Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazdıq. Əzəli torpaqlarımızın düşmən işğalından azad olunması üçün yol getdik. Güclü Azərbaycan ordusu cəbhədə öz sözünü deyərək, tariximizə Zəfər yazdı. "Xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə mərhələli olaraq dönürlər. Bu gün Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 32 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra artıq üçüncü ildir ki, bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qazilərimiz sağlam həyata qayıdır

## *439 şəxs 4-cü nəsil müasir protezlərlə təmin edilib*

Azərbaycan xalqı mərd və cəsarətli oğulları ilə qürur duyur. Dövlətimiz münaqişənin ədalətli, beynəlxalq hüququn prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində uzun illər çalışsa da, Ermənistan öz niyyətindən əl çəkmədi və 44 günlük Vətən müharibəsində Zəfər qazandı. Bu gün Azərbaycan xalqı qalib xalqdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu üç il əvvəl Vətən müharibəsində tariximizin şanlı qəhrəmanlıq səhifəsini yazdı. Misli görünməmiş döyüşlərdə əzəli torpaqlarımız Ermənistanın 30 ilə yaxın davam etmiş işğalın-





dan azad olundu.

Müharibə başlayan ilk günlərdən Azərbaycan xalqının igid övladları şücaət, qəhrəmanlıq göstərdilər və Vətən torpaqları uğrunda vuruşdular. Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq". Dövlətimiz tərəfindən Vətən müharibəsinin hər bir şəhid ailəsinə və qaziyə xüsusi həssaslıqla yanaşılır. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir, dəyərlidir.

### "İNSANLAR O PROTEZLƏRDƏN İSTİFADƏ EDİB FUTBOL DA OYNAYA BİLƏRLƏR"

Müharibədə sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtması üçün dövlətimiz tərəfindən addımlar atılır. Dövlət başçısı çıxışlarının birində onların həyatında yeni dövrün başlandığını bildirmişdir: "Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək".

Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamı bu isti-



qamətdə mühüm addımın atılmasına imkan verib.

### ƏRAZİ BÜTÖVLÜYÜNÜN MÜDAFİƏSİ ZAMANI SAĞLAMLIQLARINI İTİRƏNLƏRƏ QAYĞI

Bu gün də Vətən müharibəsində sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa olunması, onların fəal həyata qayıdışı üçün lazımi tədbirlər görülüb. Döyüşlərində əlil olmuş şəxslərin Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən protezlərlə təmin edilir. 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazinin, müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. 439 şəxs 458 ədəd yüksək texnologiyalı son - 4-cü nəsil müasir protezlərlə təmin edilib. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrinə dövlət qayğısı və diqqət davamlıdır. Tarixi Zəferimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə iştirakçıları ilə bağlı həyata keçirilən geniş sosial dəstək tədbirləri davamlı olaraq reallaşır.

Həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biridir. Bununla bağlı artıq qeyd olunan istiqamətdə müvafiq işlər görülür.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıqlarını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# FELYETON

## Bir başqa pul

Yazının adını oxuyan kimi ağlınıza başqa fikirlər gəlməsin, söhbət başqa pullara susayıb vətəninin, xalqının, dövlətinin maraq və mənafelərini başqa dövlətlərin siyasi və dini mərkəzlərinə satanlardan getmir. Bu "başqa" söhbəti, tamam başqa söhbətdir.

Məsələ ondan ibarətdir ki, bir 15 əvvəl xalqımızın bir çox 11 il məktəb oxumuş və bir miqdar elm hasil etmiş nümayəndələri alver sövdələşmələrində pulumuzun adını və məbləğini başqa cür ifadə edirdilər. 250 manatlığa "Qız qalası", 500 manatlığa "Nizami", 1000 manatlığa "Məmməd", 10 min manatlıq əskinasa isə "Şirvan" deyirdilər. Çox uzatmadan keçək "mustafa"ya...



Deməli, biri vardı, biri yoxdu... yox belə olmadı, bu axı nağıl deyil, olmuş əhvalatdır, nə qədər şahidi filanı var. Əhvalat vaqe olur 2000-ci illərin ortalarında Tovuz şəhərində. O illər Tovuz televiziyasında işləyən vaxtlarım idi. Günlərin bir günündə bir yas məclisində iştirak edirdim, məclisdə mənimlə eyni stolda oturmuş bir ağsaqqal kişi söhbət eləyir, deyir ki, bəs filan yerim ağrıyırdı, getdim bolnisiyə (?) müalicə götürdüm, həkimə bir başqa pul verdim, amma genə bir xeyri olmadı...

Adamın rüşvət verməsi və bunu ictimai yerdə rəsmi etiraf etməsi məni o qədər də təəccübləndirmədi, çün belə söhbətlər adidən də adi bir şeydir məmləkətimizdə. Məni "cin atı"na mindirən o oldu ki, bu ağsaqqal rüşvəti niyə öz manatımızla deyil, başqa pulla- böyük ehtimalla dollarla və ya rublla ödəyib. Nəticədə aramızda belə söhbət yarandı:

- Dayı, həkimə niyə başqa pul verirdiniz ki, öz pulumuza nə gəlib?
- Öz pulumuzdan verdim də.
- Bəs deyirsiniz bir başqa pul verdim?
- Başqa deyəndə, yəni, paşka deyirəm də...
- Hə paçka, ...nə paçkası idi?
- Şirvan.
- Şirvan nədir? Bu adda dünyada valyuta olduğunu eşitməmişəm.
- Ayə, məni dolayıbsan? Şirvan də, şirvan... yanı 10 minlik pul var idi ey, ondan...
- Axı indi o əskinas yoxdur, ləğv olunub, neçə illərdir təzə manatlar dövriyyədədir, o köhnə işləməyən pulları necə verdiniz ona?
- A kişi, təzə pullan verdim ee, prosta o qədər eləyir.
- Nə qədər yəni?
- Bir "başqa" şirvan qədər.
- Bir "paçka" şirvan nə qədər edir ki?
- Qoy görüm... ayə 200 manat eləyir dana indiki pulnan 1 aylıq maaşım getdi bajoğlu
- Bəs onda deyin ki 200 manat verdim də. Özü də, 200 manat necə bir "paçka" edə bilər, axı 2 manatlıq pulumuz yoxdur?
- Paza keçmişik ee, a bala, pulu başqa ilə verməmişəm ey, yanı bir başqalıq şirvan qədər pul verməmişəm dana, 2 dənə təzə yüzlük idi
- Belə deyin də, "bir başqa şirvan" əvəzinə "200 manat" demək daha rahat deyilmi?
- Ağzımız öyrəşib... təzə puldan adamın başı çıxmır
- Dayıcan, Sovet vaxtı 50 il bu sistemlə pul alıb-vermisiniz, indiki pulumuz da elə o vaxtkı dəyərdədir. O vaxt da məsələn, qənd 1 manat idi, indi də, o vaxt da siz 200 manat maaş alırdınız, indi də. Yazıq "şirvan" neçə ildir dövriyyədən çıxarılıb, amma hələ də ondan əl çəkə bilmirsiniz... Şirvan, Məmməd, Nizami, Qız qalası filan Elə hökumət yaxşı eləyib pulun ustundə şəkilləri ləğv elədi...
- Bizdə baş qoyublar a bala? Sovet dağılandan sonra pulun bərəkəti də getdi, o vaxt o 200 manata bir ay adam kimi dolanırdıq, indi dövrani-gərdişi-kəcrəftar səbəbindən o pul bir həftəyə də çatmır...

Bu söhbət əsnasında yanımda oturan iş yoldaşım elə hey ətəyimdən çəkirdi ki, "aya dincəl, kişi ilə nə işin var, qoy necə istəyir desin də, sən jurnalistsən deyə indi hamı ədəbi dildəmi danışmalıdır?". Əslində, mənim bu daayını dolamaq fikrim yox idi, sadəcə adamların niyə pulun üstündə aşkar yazılmış rəqəmləri deyə bilməyib, o pullara müxtəlif adlar qoymasının səbəblərini öyrənmək istəyirdim. Ona görə də, bu söhbət bir qədər də uzanmışdır.

Söhbətin gerisini yazıb vaxtınızı almayım,- "ayda 200 manat qazanırsınız, bəs o qədər rüşvəti necə və niyə verirsiniz",.. "verməsən olmur bala, bəs o həkim 120 manat maaşla acından ölsünmü?"- kimi mənasız sual-cavabı burda yazmağın nə faydası var?!

Sovet vaxtı məşhur bir anektod var idi- Bir gün SSRİ rəhbəri Xruşşovla Çinin rəhbəri Mao Tszedun görüşürlər. Mao müəllim deyir ki, bizdə istedadlı "fokusnik"lər çoxdur, onlar bir aylıq maaşı bircə gündə xərcləyib bitirirlər. Nikita yoldaş da qayıdır ki, bizdə daha istedadlıları var- ayda 200 manat alırlar, amma 500 manat xərcləyirlər...

Bizdə indi vəziyyət bu sarıdan daha qəlizdir. Bizim məmurların, artistlərin, həkimlərin, müəllimlərin maaşı ilə onların aylıq xərcləri arasındakı keçilməz uçuruma nəzər salmaq kifayət edir ki, məsələ aydın olsun. Mən hələ bahalı daşınar və daşınmaz əmlakı demirəm...

Məndən sizə amanat, rüşvət alanda da, verəndə də öz pulumuzdan istifadə edək, yoxsa ölkədə manatın məzənnəsi aşağı düşər, inflyasiya sürətlənər, Mərkəzi Bankın məzənnəni saxlamaq üçün xərclədiyi milyonlar batar, üstəlik, bazarda qiymətlər, bank kreditləri daha əlçatmaz yüksəkliklərə bayraq sancar. Onsuz da bəzi iribuynuzlu dəllallar qiymətləri artırmağa girəvə gəzirlər. Sonra demədi deməyin...

***Elçin Bayramlı***

# "Qarabağ" dastanının "Füzuli" boyu




Ey böyük Məhəmməd Füzuli, 2020-ci ilin 17 oktyabrında Azərbaycanın gözü, döyünən ürəyi Füzuli rayonunun növbəti bir sıra kəndlərinin və Füzuli şəhərinin işğaldan azad olunması xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandandan alanda ilk xəyalıma gələn Sən oldun. Milli Ordumuzun qanı, canı bahasına düşməndən qopardığı əzəli və əbədi yurd yerlərimiz Səni xatırlatdı mənə. Ey torpaq sevgisinin aşiqinə çevrilən, ey Vətən sevgisinin Məcnunu olan, ədalətə, haqqa canını qurban verən, damarlarından axan azərbaycanlı qanının coşğusu ilə döyüş meydanı söz olan şair... Dünyanın neçə-neçə hökmdarlarını yola salan, əsrlərin müharibələrinə, qələbələrinə şahid, sözü ilə daimyaşar Füzuli... Yadıma sən düşdün. Çünki Sən Füzuli rayonundan da, füzulilərdən də qocamansan... Bu müjdəni ilk olaraq səninlə bölüşmək istədim.

## Gözün aydın, Məhəmməd Füzuli

Dedim, gözün aydın, Məhəmməd Füzuli, əsası 1827-ci ildə qoyulmuş, Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılan rayonun 1959-cu ildə Səninböyük şairimizin 400 illik yubileyi münasibətilə adı dəyişdirilərək Füzuli qoyulan yurd yerimiz düşməndən azad olundu. Qəbrində rahat yat. Su çilənsin məzarına. Qılıncdan iti qələmini süngərə çevirən Azərbaycan əsgəri bir dastan yazdı. Bu dastan "Qarabağ" dastanıdır. Sən də bu dastanın bir boyuna çevrildin. Füzulilər bu gün sevinc içərisindədirlər.1993-cü ildə doğma ev-eşiklərindən erməni köksüzlərinin zoru ilə didərgin düşmüşdülər. Füzulidə doğulan Füzuliyə həsrət qalmışdı. Füzulidə ev-eşik salan, torpağını canından artıq sevən azərbaycanlılar illərdir ki, bu torpağın ətrini burunlarında hiss edirdilər. Güləndən, çiçəyindən, dərəsindən-düzündən ayrı düşmüşdülər. Sənin qəzəllərinin torpaq sevdalılarına, Vətən aşiqlərinə, həsrətlilərinə çevrilmişdilər. 30 ilə yaxındır ki, dünyanın "ədalətə cavabdehləri" danışır, danışır, danışdıqca da söz həqiqət məhvərindən çıxıb başqa məcralara yönəlirdi. Sənin:

*Gər çox istərsən, Füzuli, izzətin az et sözü Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.*

Sənin "Əgər sözün hörmətli, dəyərli olmasını istəyirsənsə, miqdarini az et, çünki çox danışmaq çox insanı hörmətdən salıb",- nəsihətini dinləmədi bu "ədalət cavabdehləri". Söz sözlükdən çıxdı, yalanlara qurban getdi, Füzuli. Hansı ki, sən sözü dünyanın tacı, insanlığın açarı, mənəviyyatın varlığı hesab edirdin:

*Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl, Edə hər saət səni ol uyqudan bidar söz.*

"Sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca dirilmiş olasan",-deyirdin. Sözü yalan olanlar ölümlərindən sonra da xatırlanacaq, şair. Lakin tamamilə başqa cür xatırlanacaqlar: bir xalqın əzəli torpaqlarının işğalına göz yumanlar kimi, minlərlə şəhidin qanında boğulanlar kimi, yüzlərlə dinc sakinin, xüsusilə də uşaqların qanlarına əlləri batmış və sözünü tutmayan, sözünün ağası olmayanlar kimi.





## "Qarabağ" dastanının "Füzuli" boyu

Gözün aydın, Füzuli! Xalqın dastan yazdı, tarixi "Qarabağ" dastanını yazdı. Bu ali bir dastandır, çünki şəhid qanı ilə, bir də dövlətimizin rəhbərinin kəsərli sözü ilə yazıldı. Qarabağın əsrlərlə yaşı fonunda 30 illik nisgilinin qələbəsini yazdı. Ali Baş Komandanın böyük Milli Orduna əmri, xalqına verdiyi inamla yazıldı bu dastan. Sənin adını daşıyan Füzuli də bu dastanın bir boyu oldu.

Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik boyu uzanan, mənbəyini Araz hövzəsindən alaraq köksündən axıtdığı Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları ilə gözəlliklər məkanı olan, uğrunda hələ əvvəllər, işğalı zamanı 1000-dən artıq eloğlumuzun şəhid olduğu, 1500-dək sağlamlığını itirmiş insanlar olan Füzuli öz növrağına qovuşdu. 27 sentyabr 2020-ci il tarixdə şanlı Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, 9 oktyabrda Yuxarı Güzlək, Gorazıllı, 14 oktyabrda Qaradağlı, Xatunbulaq, Qarakollu, 15 oktyabrda Arış kəndi işğaldan azad edildi. 17 oktyabrda isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olundu.

## Biz Füzuliyə qayıdırıq

Həyatını Azərbaycan xalqının müstəqilliyinə həsr edən Ümummilli Liderimizin ardıcılı, qürur mənbəyimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: "Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir".

Bəli, biz Füzuliyə qayıdırıq. Tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin, rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsinə, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsinə, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəyə, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsinə, Qarğabazar kəndində, Şah Abbas karvansarayından yuxarı, qayanın üstündə füzulilərin Şah Abbas adlandırdığı məscidə qayıdırıq. Biz tariximizi qorumağa, gələcək nəsillərə ərmağan etməyə qayıdırıq.

Biz qayıdırıq. Müharibə hələ bitməmişdi, azad edilmiş torpaqlarımızda bərpa işlərinə başlanmışdı. Ona görə ki, bir qərinəyədək məcburi köçkün həyatı yaşamağa məhkum edilmiş soydaşlarımız ata-baba yurdlarına tez bir zamanda qayıda bilsinlər. Necə ki, Ali Baş Komandanın sərkərdəliyi ilə xalq Zəfər qazandı, dövlətimizin başçısının rəhbərliyi ilə də Qarabağ və Şərqi Zəngəzur dirçəldilir. Budur, artıq yüzlərlə sakin mərhələli şəkildə öz torpaqlarına qayıdır. Bu gün qürur hissi ilə vurğulamaq olur ki, azadlığının 3-cü ilində Füzuliyə də yüzlərlə sakini qayıdıb. Böyük Qayıdış isə davam edir. Yaxın gələcəkdə bütün füzulili məcburi köçkünlər öz yurdlarında olacaqlar.

*"Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq"...*

Bu fikirləri 2020-ci ildə xalqa müraciətində ölkəmizin rəhbəri söylədi. Bəli, yazıldı, cənab Prezident. Necə ki, Sizin rəhbərliyinizlə ön cəbhədə Milli Ordumuz torpaqlarımızı bir-birinin ardınca azad edirdi, biz arxa cəbhədə olanların da borcu kitablar, əsərlər yaratmaq idi. Yaratdıq, yaradacağıq da. Azad olunan torpaqlarımız hər biri bir boy olmaqla, "Qarabağ" dastanını yaratdı. Sizin dediyiniz kimi döyüş yolu keçənlərlə, hərbçilərlə görüşüb o ağır hərbi əməliyyatları təfsilatı ilə bildik, yazdıq. Ölkəmizin tarixini yazmaq, gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

## Böyük Məhəmməd Füzulidən nəsihət

Məhəmməd Füzuli dövründə Məhəmməd adlı paşaya yazdığı qəsidədə hökmdarın ölkəni ədalətlə bəzəməyə borclu olduğundan, ədalətsizlik nəticəsində ölkədə nə kimi fitnə-fəsad törənəcəyindən danışırdı. Böyük əraziləri işğaldan azad olunmuş Füzuli rayonundan elə böyük Məhəmməd Füzulinin bu günlə səsləşən həmin qəsidəsindən bir parçanı Ermənistan rəhbəri nəsihət şəklində qəbul etsəydi, orada yaşayan insanları ölümə sürükləməzdi. Lakin dinləmədi. Başqasının torpağından çıxmaq istəməyən, bunun üçün də xalqının qocasını, qadınını müharibəyə cəlb edən, döyüşmək istəməyən əsgərləri zəncirləyən, ölkədən qaçıb canını qurtarmaq istəyən insanları güllələtdirən bu "rəhbərin" ölkəsində hansı fitnə-fəsadların yarandığına və yaşandığına ötən illərin hər birində canlı şahid olduq.

*Vay ol hakimə kim, eyləyə hökmündə xəta, Qıla məzlumləri mərhəmətindən məhrum...*

***Mətanət Məmmədova***

***P.S. Bu gün Qarabağ tamamilə azaddır, Füzuli. Sən azad olunanda hələ Laçın, Kəlbəcər, Ağdam azad olunmamışdı. Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran erməni separatçılarının əlində idi. Artıq bu torpaqlar da azaddır. Onların hər birində Azərbaycan bayrağı dalğalanır. Həm də qürurla dalğalanır. Bu dalğalar isə Azərbaycan xalqının qəhrəmanlığından, birlik və həmrəyliyindən, dövlətimizin apardığı böyük siyasətdən söhbət açır...***

# Vədinə və andına əməl edən LİDER!

Bu gün işağldan azad edilmiş torpaqlarımız rahat nəfəs alır. Keçmiş qaçqın və məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar. Hər yerdə quruculuq, abadlıq işləri həyata keçirilir. Bütün bunlara görə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə və bu siyasəti uğurla davam etdirərək ölkəmizə yeni-yeni qələbələr bəxş edən Prezident İlham Əliyevə minnətdarıq, təşəkkürlər edirik. İnanırıq ki, bu uğurlar və qələbələr davamlı olacaq. Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdərədə, Xocavənddə və digər ərazilərdə qaldırılan bayrağımız əbədi dalğalanacaq. Əminliklə demək olar ki, bugünkü güclü, qüdrətli Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Qurulan bu dövlətin sükanı arxasında Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin olması Azərbaycana yeni-yeni uğurlar gətirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2003-cü il prezident seçkiləri ərəfəsi söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri son 20 ildə öz uğurlu nəticəsini bütün sahələrdə təsdiq etməkdədir. Ölkəmizin sosial, iqtisadi sferada, elm, mədəniyyət, hərbi və siyasi sahələrdə mütərəqqi nailiyyətlər əldə etməsi onu deməyə əsas verir ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin zəfər yolunu ləyaqətlə davam etdirir. 2003-cü il oktyabrın 1-də Dahi Öndər Heydər Əliyev xalqa müraciət edərkən demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".



**Son 20 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasəti sayəsində Azərbaycan dünyanın ən inkişaf edən dövlətləri sırasına yüksəlib**

## Ötən 20 il ərzində geniş ixrac infrastrukturu yaradılmış və ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə geniş miqyaslı quruculuq abadlıq işləri həyata keçirilmiş, sosial iqtisadi sahə də nailləyətlə qazanılmış, işğaldan azad edilmiş ərazilərimizin azadlığına qovuşması təmin edilmişdir. İqtisadi uğurlar insanların həyat səviyyəsinin daha da yaxşılaşması deməkdir. Verilən məlumata görə, Azərbaycanın strateji valyuta ehtiyatlar 67, 8 milyard ABŞ dolları təşkil edir. Ötən 20 il ərzində Azərbaycanın valyuta ehtiyatları 40 dəfə artmışdır. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmişdir. Hazırda qəbul edilən dövlət proqramlarının bir qismi başa çatdırılmış, digərləri isə uğurla icra olunmaqdadır. Ölkə iqtisadiyatına qoyulan investiyanın həcmidə hər il artmaqdadır. Ötən 20 il ərzində Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft və Bakı-Tbilisi-Ərzurum neft-qaz sektoruna 30 milyard ABŞ dollarından artıq sərmayə cəlb edilmiş, geniş ixrac infrastrukturu yaradılmış və ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir. Xarici investisiyanın ölkə iqtisadiyyatına cəlb edilməsi nəticəsində Dövlət Neft Fondunun valyuta ehtiyatları dəfələrlə artmışdır. Təbii ki, maliyyə daxil olunmaları müxtəlif sosialyönümlü layihələrin icrasına, əhalinin sosial vəziyyətlərinin yaxşılaşmasına, yeni iş yerlərinin artmasına xidmət edir. Beynəlxalq maliyyə fondlarının gəldikləri qənaətə və açıqladıqları illik hesabatlara görə, Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlətdir. Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatdırılıb. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşıb. 2018-ci il iyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda çıxış edən Prezident İlham Əliyev bildirmişdi ki, "ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir". 2003-cü ildən sonrakı dövrdə hərbi xərclərin 15 dəfədən çox artırılması, hərbçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılmasından tutmuş ordunun ən müasir silahlarla, texnika ilə təchizatına kimi məsələlərin effektiv həlli, o cümlədən müdafiə sənayesinin formalaşdırılması, 20-dən çox hərbi zavodun yaradılması və 1200 adda hərbi təyinatlı müxtəlif məhsulların istehsalı, hərbi-texniki sahədə dost ölkələrlə çox səmərəli əlaqələrin qurulması və inkişaf etdirilməsi, ən əsası isə ordunun döyüş qabiliyyətinin, hərbçilərimizin peşəkarlığının yüksəldilməsi istiqamətində atılan məqsədyönlü addımlar son nəticədə Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasına daxil olmasını şərtləndirdi.

## Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərə daim xüsusi qayğı ilə yanaşır

Son 20 ildə ölkədə minlərə məktəb binası tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edilib. Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikildi, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən quruldu, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazandı. Şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilib. Şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onlara dövlət tərəfindən 11 min manat vəsait verilməsi həyata keçirilib. Prezident İlham Əliyev 19 oktyabr 2006-cı ildə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında Sərəncam imzaladı və həmin Sərəncamla müvafiq icra hakimiyyəti orqanlarına Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramını hazırlamağı tapşırdı. Buna uyğun olaraq o, 16 aprel 2007-ci ildə 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramını təsdiq etdi. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Prezident İlham Əliyevin ölkənin gələcək inkşafı məqsədilə göstərdiyi əsas strateji təşəbbüslərdəndir. Konsepsiya 2020-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və ictimai rifahın artırılması üçün tədbirlər və fəaliyyətlər nəzərdə tuturdu. BMT-nin Dayanıqlı İnkşaf Məqsədlərinin tətbiqi haqqında Azərbaycanın könüllü məruzəsinin qiymətləndirilməsində Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uzunmüddətli milli istəkləri, sərmayəçilər üçün imkanları və bu məqsədlər barəsində əsas məsələləri əks etdirən strategiya kimi təsvir olunmuşdur.

## Azərbaycanın Sədrliyi dövründə Qoşulmama Hərəkatı ən dinamik inkişaf dövrünü yaşamışdır

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının təsis olunması Azərbaycanın prinsipial fəaliyyətinin nəticəsidir. Qoşulmama Hərəkatının Bakıda keçirilən konfransında Prezident İlham Əliyev Parlament Şəbəkənin əhəmiyyətindən danışarkən demişdır: "Azərbaycan parlamentinin səkkiz il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda, dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq. 2018-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində Cənab İlham Əliyevin yenidən Prezident seçilməsi bir daha xalqımızın Ona inandığını, etimad və etibar etdiyini, daxili və xarici siyasətini dəstəklədiyini göstərir. Xalqın dəstəyi, ordunun qüdrəti, Müzəffər Ali Baş Komandanın Sərkərdəlik məharəti işğal altında qalan torpaqlarımızın azad edilməsini hədəflədi. Bir zaman ən adi silahları xaricdən alan Azərbaycan 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin hesabına özü müasir silah və texnika istehsal etməyə başladı. Nazirliyin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətənin müdafiəsi, düşmənin yerində oturdularaq işğal altında olan torpaqların azad edilməsi uğrunda "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Müzəffər Ordumuzun 44 günlük savaşda 300-ə qədər kəndi, 5 şəhəri, 4 qəsəbəni, xeyli sayda strateji yüksəklikləri işğaldan azad etməsi noyabrın 10-da Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Bəyanatın imzalanması ilə nəticələndi.

## Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla xalqımıza yeni və möhtəşəm sevinc bəxş etdi

Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi Şuşanın işğaldan azad edildiyi gün - 8 noyabr Zəfər Günü kimi təsis olundu. Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində demişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!".

Bu ilin sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Qarabağdakı separatizm tamamilə ləğv edildi. Qısa müddətdə separtçıların böyük əksəriyyəti, o cümlədən, Vardanyan, Artunyan, Qukasyan, Saakyan və digələri həbs edilərək istintaqa təhvil verildilər. Yaxın günlərdə məhkəmə keçiriləcək və separtçılar layiqli cəzalarını alacaqlar. Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankındidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla xalqımıza yeni və möhtəşəm sevinci bəxş etdi.

***İ.ƏLİYEV***

# Türkmənistan TDT-yə doğru...





**Türkmənistan Prezidenti Serdar Berdiməhəmmədov Türkiyəyə rəsmi səfərə hazırlaşır. Onun sözlərinə görə, bu səfər Türkmənistan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni səhifələr açacaq. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla danışıqlar zamanı ikitərəfli ticarət, enerji, nəqliyyat sahələrində əməkdaşlıq, o cümlədən Türkmənistanın Türk Dövlətləri Təşkilatına (TDT) tamhüquqlu üzv kimi qəbulu məsələləri müzakirə olunacaq.**




Səfərə hazırlaşmaq üçün Türkiyənin xarici işlər naziri Hakan Fidan Aşqabada səfər edib və o, vətənə qayıdarkən prezident Serdar Berdiməhəmmədov və Türkmənistan Xarici İşlər Nazirliyinin rəhbəri Rəşid Meredovla aparılan danışıqlardan razı qaldığını bildirib. Türkiyəli nazirin sözlərinə görə, iki ölkə arasında son dərəcə güclü və güclü ikitərəfli əlaqələr var. H.Fidan bildirib ki, "Türkiyə və Türkmənistan sarsılmaz və möhkəm əlaqələri olan, "bir millət, iki dövlət" düsturu ilə fəaliyyət göstərən ölkələrdir.

Xatırladaq ki, Berdiməhəmmədov 42-ci ad günündə, sentyabrın 22-də Ərdoğandan Türkiyəyə dəvət alıb. Bu barədə "Neytral Türkmənistan" dövlət qəzeti məlumat yayıb. Türkiyənin dövlət başçısı təbrikində Türkmənistana firavanlıq arzu etməklə yanaşı, ikitərəfli formatda və xüsusilə TDT kimi nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşəcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, Türkmənistan dövlətin neytral statusunu əsas gətirərək türk inteqrasiyasından çəkinirdi. Lakin Ankaranın təzyiqi ilə Aşqabad hələ 2021-ci ilin oktyabrında Türk Dövlətləri Təşkilatına çevriləndə Türk Birliyində müşahidəçi statusu almalı idi. Ankara Türkiyənin vitse-prezidenti Fuat Oktayın simasında "ağır artilleriya"dan istifadə etsə də, Aşqabad 2022-ci ildə tam üzvlükdən yayına bildi. O, xüsusən də Türkmənistan qazını TANAP xətti ilə Avropaya daşıyaraq Azərbaycan üzərindən Türkiyəyə nəql edəcəyinə söz verib. Türkmənistan uzun müddətdir ki, enerji marşrutlarını şaxələndirmək planları hazırlayır. Ola bilsin ki, bu hal öz təsirini göstərib və artıq 2023-cü il martın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə çağırılan TDT-nin fövqəladə Zirvə toplantısı zamanı Halk Maslaxatının sədri Qurbanqulu Berdiməhəmmədov bəyan edib ki, Türkmənistan tezliklə Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv olacaq. Görünən odur ki, Türkmənistan və Türkiyə prezidentləri qarşıdakı görüşdə bu məsələyə son qoyacaqlar. Noyabrın 14-də keçiriləcək növbəti TDT sammitində Türkmənistanın Türk Birliyinə təntənəli girişi baş tutacaq.



Bununla belə, Türkmənistan qazının Azərbaycan və Türkiyə vasitəsilə Aİ-yə tədarükü planlarda qalır, çünki Transxəzər qaz kəmərinin tikintisi layihəsi ideya çərçivəsindən irəli getməyib. Son illərdə nə təchizat şəraitində, nə də Türkmən qazının nəql oluna biləcəyi qurğuların mövcudluğunda heç bir əsaslı dəyişiklik baş verməyib. Bu barədə məlumatda deyilir ki, Aİ bu layihəyə soyuqqanlı yanaşıb, onun həyata keçirilməsinin mürəkkəbliyini və faydasızlığını əsas gətirib. Buna baxmayaraq, Türkmənistan gələcək boru kəmərinin perspektivli olduğunu təkid edərək Qərb ölkələrini bunun əksinə inandırmağa çalışır. Xəzəryanı ölkələrin bir neçə dəfə müraciət etdiyi arqumentlərdən biri də Türkmənistanda qaz hasilatının gələcək səviyyəsi ilə bağlı proqnozlar olub. Aşqabad yaxın gələcəkdə hasilatı dəfələrlə artıra biləcəyini gözləyir.

Ekspertlərin fikrincə, Xəzəryanı dövlətlərin artıq mövcud olan infrastrukturu vasitəsilə həyata keçirilə bilən türkmən qazının tədarükü layihələri daha real görünür. Xüsusən, Aşqabad İran və Azərbaycan ərazisi vasitəsilə Macarıstana svop tədarükü qurmağı gözləyir. Bu müqavilə 2023-cü ilin sentyabrında imzalanıb. Türkmənistan qazının Trans-Adriatik və Trans-Anadolu qaz kəmərləri ilə nəqlini təmin etməli olan bu ideyanın həyata keçirilməsində Türkiyə iştirak edir. Lakin burada da Türkmənistan qazı Cənub Qaz Dəhlizinin imkanlarını nəzərə almalıdır.

Azərbaycan Türkiyə qaz qovşağının yaradılması layihəsinə qoşulduqdan sonra vəziyyət kəskin şəkildə dəyişə bilər. Rusiya Federasiyası Baş nazirinin müavini Aleksandr Novak bir gün əvvəl Bakıya planları açıqlayıb. "Bu, həm Türkiyənin, həm də Rusiyanın böyük maraq göstərdiyi bir layihədir. Maraqlanan başqa ölkələr də var. Məsələn, Azərbaycan da layihədə iştirak etməyə hazırdır", - deyə Novak bildirib.

Ola bilər ki, Türkmənistan da qaz qovşağının yaradılmasının iştirakçısına çevrilsin. Türkmənistan regionda enerji və logistika birlikləri planlarında Azərbaycandan sonra növbəti tərəfdaşdır. Türkmənistanın enerji resursları olmadan Türkiyədə qaz qovşağı tamamlanmayacaq. Bu layihə Rusiya üçün də maraqlıdır. O, Rusiya qazını əvəzetmə və ya hər hansı digər üsulla Avropa bazarına çıxarmaq imkanı verəcək. Bu, yaxşı ideyadır və dəstəklənəcəyinə ümid çoxdur. Bəzi siyasətçilər eyni zamanda, Türkmənistanla Türkiyə arasında "bir millət, iki dövlət" düsturu altında tam yaxınlaşmasına şübhə ilə yanaşır. Hesab edirlər ki, Türkmənistan neytral ölkədir və hakimiyyəti çətin ki, öz bitərəfliyindən güzəştə getsin. Bu neytrallıq Türkmənistana münaqişələrin hökm sürdüyü dünyada yaxşı fəaliyyət göstərməyə imkan verir. Aşqabad neytral statusundan istifadə edərək, BMT-nin himayəsi altında Mərkəzi Asiyada Təhlükəsizlik Konfransının yaradılması ideyasını irəli sürüb. Bu ideya logistika və enerji marşrutları üçün faydalı olacaq. Aşqabad beynəlxalq zəmanət tələb edir. Burada keçən əsrdə qəbul edilmiş və indi də işlək vəziyyətdə olan beynəlxalq boğazlar haqqında sazişə bənzər enerji və nəqliyyat sahəsində transmilli sazişdən söhbət gedə bilər.

Ekspertlər hesab edir ki, TDT xətti ilə yaxınlaşma davam edəcək. Bu, obyektiv prosesdir və Rusiya da burada iştirak edə bilər. Rusiya Federasiyasının bu təşkilata müşahidəçi, hətta tamhüquqlu üzv kimi daxil olmaq üçün bütün əsasları var. Moskva hesab edir ki, Rusiyanın bu təşkilata üzv olması üçün müşahidəçi Macarıstandan daha çox səbəbi var.

***V.VƏLİYEV***

# Yeni enerji strategiyasının memarı...



**Yaşar Əhmədov**
***Fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti***

Dəmir iradəsi, yorulmazlığı, qeyri-adi müdrikliyi, dövlət siyasətindən professional səviyyədə baş çıxarması nəticəsində Ulu öndər müstəqilliyimizin ilk illərində ölkəmizi üzləşdiyi ağır iqtisadi və siyasi vəziyyətdən şərəflə çıxarmış, ”Əsrin müqaviləsi” ilə ”yeni enerji strategiyasının” əsasını qoymuş, Azərbaycanın dövlət təhlükəsizliyi sistemində ən böyük nüfuz sahibinə çevrilmişdir. Məhz onun sayəsində ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər müstəqilliyimizin möhkəmləndirilməsi yolunda mühüm amilə çevrilmişdir. Bu bir reallıqdır ki, enerji siyasəti bu gün dünyada mühüm və strateji rola malikdir. Qloballaşan dünyada dövlətlərin iqtisadi və siyasi gücü bir çox cəhətdən enerji təhlükəsizliyi məsələləri ilə ölçülür-daha dəqiq enerji təhlükəsizliyi sabitliyin və təhlükəsizliyinə qarantı hesab edilir. Məhz bu baxımdan Ümummilli liderin enerji strategiyası ölkəmizə yalnız iqtisadi deyil, həm də siyasi dividendlər qazandırır. Bu gün Azərbaycan özünün müstəqil enerji siyasətini həyata keçirir və bu siyasət regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Ölkədə və regionda enerji resurslarının, enerji təchizatının və tədarük bazarlarının şaxələndirilməsi, qarşılıqlı investisiya qoyuluşunun artması, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması həyata keçirilən enerji siyasətinin səmərəli nəticələridir.

Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifah halının yaxşılaşdırılmasına və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada, Azərbaycan xalqı çox xoşbəxtdir ki, tarix ona Ümummilli lider kimi dünyamiqyaslı dahi şəxsiyyət, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa bir zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı bəxş etmişdir.

Bu gün Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca faktorlardan birinə çevrilmişdir. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir. Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir-qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir. Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Ulu öndərin zəkası, Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü demişdir. Digər tərəfdən, Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə - diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin, regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Memarı Umummilli lider olan Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir.

Bütövlükdə, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla enerji sahəsində tərəfdaşlıq əhəmiyyətli strateji dividendlər vəd edir və çoxşaxəli tərəfdaşlıq nöqteyi-nəzərindən yüksək qiymətləndirilir. Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi əhəmiyyət verən aparıcı dövlətlər üçün mühüm önəm daşıyır. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi və iqtisadi, həmçinin enerji təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfələr verməkdədir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Beləliklə, dünya dövlətləri Azərbaycanın siyasi əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda enerji təhlükəsizliyi sahəsində əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu qəbul edir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrinin geostrateji - siyasi və iqtisadi əhəmiyyəti beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir. Çünki Azərbaycanın bu sahədə həyata keçirdiyi strateji kurs həm də ölkəmizlə əməkdaşlıq edən dövlətlərin enerji təhlükəsizliyinin, milli maraqlarının təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir-bu baxımdan, Cənub Qaz Dəhlizi böyük önəm kəsb edir-Cənub Qaz Dəhlizi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırmış, bütövlükdə, Avropanın enerji təhlükəsizliyinə sanballı töhfədir. Enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin struktur elementlərindən biri olaraq həlledici yerə və rola malikdir. Əgər Samuel Hantinqton yaşadığımız XXI əsri dünya sivilizasiyalarının toqquşması əsri kimi xarakterizə edirdisə, müasir siyasi reallıqlar kontekstində bir sıra siyasi ekspertlər dünya siyasətinin aparıcı amili kimi dövlətlərin enerji ehtiyatlarına malik olub-olmaması ilə səciyyələndirirlər.

Enerji təhlükəsizliyinin siyasi məfhum kimi meydana çıxmasının tarixi başlanğıcı vardır. Belə ki, Birinci dünya müharibəsi ərəfəsində Böyük Britaniyanın baş naziri və dünyanın bugünkü siyasi mənzərəsini müəyyənləşdirən əsas şəxslərdən biri olan Uinston Çörçil ingilis donanmasının gəmilərinin enerji qaynağını kömürdən neftə keçirtmək haqqında tarixi bir qərar qəbul etdi. Çörçil ingilis donanmasını alman donanmasından daha sürətli etmək niyyətində idi. Lakin bu keçid Kral dəniz qüvvələrinin təkcə Uelsdəki kömürə deyil, eyni zamanda o dövrdə Fars körfəzindən gələcək neft tədarükünə olan etibarın vacibliyini də ifadə edirdi. Beləliklə, enerji təhlükəsizliyi milli strategiyanın əsas məsələsinə çevrildi. Enerji təhlükəsizliyi bu gün də dünya dövlətlərinin bir nömrəli gündəm mövzusu olmaqda davam edir. Enerji təhlükəsizliyinə olan diqqət artan yüksək neft qiymətləri ilə əlaqələndirilir. Bununla yanaşı, terror təhlükəsi, bəzi ixracatçı ölkələrdəki qeyri-sabitlik, daxili və xarici siyasətdəki uzlaşmazlıqlar, geosiyasi rəqabət, həmçinin ölkələrin iqtisadi genişlənməsini təmin etmək üçün enerjiyə olan əsaslı ehtiyacı daha da artırır. Çox uzaq gələcəkdə deyil, qarşıda gələn onilliklərdə dünyanın enerji tələbatını ödəmək üçün kifayət qədər mənbələrin olub-olmayacağına dair narahatlıq artmaqda davam edir. Enerji təhlükəsizliyinin hər kəs tərəfindən qəbul olunmuş vahid tərifi yoxdur. Əgər inkişaf etmiş ölkələr üçün bu əlverişli qiymətlərlə kifayət qədər tədarükün olmasıdırsa, fərqli ölkələr bu konsepsiyanı fərqli şəkildə izah edirlər. Belə ki, enerji ixrac edən ölkələr öz ixracatlarında ”tələbat təhlükəsizliyini” qorumağa çalışırlar ki, bu da hökumət gəlirlərinin böyük hissəsini meydana gətirir.

Avropanın enerji təhlükəsizliyində Azərbaycan yeni, yeganə, alternativ eneji mənbəyi funksiyasına malikdir. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri və ABŞ-ın Avrasiya Enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın təbiri ilə desək ”Azərbaycan təbii qazı Cənub Dəhlizinin genişləndirilməsi üçün mütləq vacibdir.” Bu mənada Cənub Qaz Dəhlizi Orta Asiya və Xəzər bölgəsindən Avropaya təbii qazın nəql edilməsi və ən başlıcası Rusiyanın təbii qaz tədarükündən asılılığı ilə bağlı narahatlıqlarına Avropa İttifaqının reaksiyası hesab edilə bilər. 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Nəticə etibarilə Azərbaycan ilə Avropa İttifaqı arasında olan münasibətlərdə əhəmiyyətli dərəcədə irəliləyiş əldə olunmuşdur. Əgər əvvəllər Azərbaycan bir vasitəçi ölkə kimi görünürdüsə, hal-hazırda ölkəmiz Cənub Dəhlizinin formasını və gələcəyini təyin edən əsas iştirakçıya çevrilmişdir-bu həm də bir mənada o deməkdir ki, boru kəmərləri Azərbycana Avropa İttifaqı ilə münasibətlərində daha çox səlahiyyətlər verəcəkdir. Azərbaycan zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malikdir. Azərbaycanın dünyanın enerji sistemində artan əhəmiyyətli rolu, transmilli enerji bazarlarında özünəməxsus yeri və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı qlobal, regional, geosiyasi və geoiqtisadi mövqeyinə mühüm təsir göstərir-bütün bu amilləri nəzərə alaraq Avropa İttifaqı Azərbaycanla münasibətlərinə xüsusi diqqət yetirir.

Azərbaycan və Avropa İttifaqının təşəbbüsü ilə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir-Avropa İttifaqı bu tədbirlərdə ən yüksək səviyyədə təmsil olunur. Azərbaycanın bütün uğurlu enerji layihələrinin təməlində birbaşa Ümummilli liderin şəxsi keyfiyyətləri və siyasi uzaqgörənliyi nəticəsində baş tutan ”Əsrin müqaviləsi” dayanır. Bu, Azərbaycanın enerji siyasətinin əsas özəyini təşkil edir. Müqavilə imzalandığı müddətdə Azərbaycan praktiki olaraq siyasi və iqtisadi blokada vəziyyətində idi. Bu çətin vəziyyətdə Ulu öndər yeddi ölkədən on bir xarici neft şirkətini inandırmağa müvəffəq oldu ki, yenicə müstəqillik əldə etmiş gənc bir dövlətə sərmayə qoysunlar. Tarixdə ilk dəfə olaraq xarici şirkətlər Xəzərdəki neft və qaz yataqlarının işlənilməsində iştirak etməyə başladılar. ”Əsrin müqaviləsi” Azərbaycanın dünyaya açıq ölkə olduğunu nümayiş etdirdi. Bu müddətdə Azərbaycanın yeni neft strategiyası və onun doktrinası uğurla başladı. Azərbaycan dahi şəxsiyyətin cəsarəti və müdrikliyi sayəsində dünyada özünü təsdiq edə bildi. Cənub Qaz Dəhlizinin Layihəsinin təşəbbüskarı Azərbaycan olmuşdur-Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməyə hazırdır. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) Azərbaycan qazını birbaşa Avropaya çatdıracaqdır. TANAP həm Türkiyənin, həm də Orta Şərqin ən uzun və ən böyük təbii qaz kəməri hesab olunur. Nəticə etibarilə Cənub Qaz Dəhlizi Avropa İttifaqının əsas enerji və geosiyasi təşəbbüsü olaraq qalacaq və Azərbaycan öz qazını Avropa İttifaqına ixrac etməkdə maraqlıdır. Azərbaycan Şahdəniz 2 yatağından çıxarılan təbii qazı TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Avropaya ötürəcəkdir.

Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasında, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsində, gənc dövlətimizin dünya miqyasında tanıdılmasında Ümummilli liderin müstəsna xidmətləri olmuşdur. Azərbaycanın ”Yeni neft strategiyası”nda mühüm məsələlərdən biri də enerji resurslarının dünya bazarına hansı marşrutlarla çıxarılması olmuşdur. Ümummilli liderin neft strategiyasının tərkib hissələrindən biri də neft marşrutlarının alternativliyinə nail olmaq idi. Neft marşrutlarının şaxələndirilməsi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi aslılığına son qoymaqla yanaşı, ölkəmizin milli mənafeyinə cavab verir. Hal-hazırda Azərbaycanın enerji resursları bir-neçə marşrutla dünya bazarına çıxarılır. Bunlar Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərləri, həmçinin Cənub Qaz Dəhlizi layihəsi əsasında reallaşan genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP (Trans-Anatolian Natural Gas Pipeline) və TAP (Trans Adriatic Pipeline) qaz boru kəmərləridir.

”Yeni enerji strategiyası”na uyğun olaraq Azərbaycanın enerji potensialının dünya bazarlarına çıxarılması istiqamətində bir sıra uğurlu layihələrə imza atılmışdır. Son illər dünyanın potensial qaz ixracatçısına çevrilmiş Azərbaycan regionun və Avropanın enerji xəritəsini zənginləşdirir, müstəqil iqtisadi siyasət yeridən bir ölkə kimi bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış edir. Artıq özünün zəngin karbohidrogen ehtiyatları hesabına enerji təhlükəsizliyini tam təmin etmiş ölkəmiz uzun illərdir ki, Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Bugün həyata keçirilən enerji resuslarının düzgün nəql strategiyası nəticəsində respublikamız dünya enerji bazarında rolunu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.

Bakı-Novorossiysk-1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır. ABƏŞ, ARDNŞ və Transneft arasında imzalanan üçtərəfli sazişdə neftin Novorossiysk limanına qədər daşınmasını nəzərdə tutan bütün hüquqi və texniki məsələlər öz əksini tapmışdır. Rusiya qəbul edirdi ki, Azərbaycan neftinin sahibi deyildir və Azərbaycan neftinə mülkiyyət hüququ bu neftin istehsalçısına məxsusdur. Bu həmin dövr üçün, Azərbaycanın ”Yeni neft strategiyası”nın əldə etdiyi mühüm nailiyyəti kimi qiymətləndirilməlidir. 997-ci il oktyabrın 25-dən Azərbaycanın nefti şimal boru kəməri vasitəsi ilə dünya bazarına çıxdı-bu neft kəmərinin ümumi uzunluğu 1330 km, Azərbaycan ərazisindəki uzunluğu isə 231 km, kəmərin diametri 720 mm-dir. Kəmərin illik nəqletmə gücü 6,1 milyon tondur.

Bakı-Supsa-1996-cı ildə martın 8-də ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilələrdə Azərbaycan Azəri, Çıraq, Günəşli yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu. Bakı-Supsa neft kəməri ilə ilkin Azərbaycan nefti 1999-cu il aprelin 17-də ixrac olunmağa başlanmışdır. Bu marşrutun ən böyük üstünlükləri Azərbaycan neftinin təmiz halda ”Azəri light” markası ilə dünya bazarına çıxarılması və neftin Supsaya Novorossiyskə nisbətən daha ucuz nəql olunması idi. Bakı-Supsa neft kəmərinin uzunluğu 837 km, diametri 530 mm-dir. Kəmərin illik nəqletmə gücü 5,1 milyon tondur.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

# Yeni enerji strategiyasının memarı...

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri-Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri kimi strateji əhəmiyyətli bir layihənin gerçəkləşməsi çox önəmli hadisə olmuşdur. İlk dəfə bu kəmərin əsas ixrac kəməri kimi çəkiləcəyini tam müəyyənləşməsi 26 aprel 1998-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə məlum oldu. 1998-ci il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə Əsas İxrac Kəmərinin çəkilməsini müdafiə edən Ankara bəyannaməsi imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olunmuşdur. 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində İstanbulun Çırağan sarayında xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş imzalandı. Bakı-Tbilisi-Ceyhan layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistan arasında İstanbul bəyannaməsi imzalandı. 2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına başlanmışdır. Bununla da Ümummilli liderin müəllifi olduğu "Yeni neft strategiyası"nın ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan reallığa çevrilmiş oldu. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1774 kilometrlik xəttin çəkilməsinə təxminən 4 milyard dollar vəsait xərclənmişdir. BTC kəməri ilə ildə 60 milyon ton neft nəql etmək mümkündür. Bu kəmər Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi, siyasi baxımdan, enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malikdir.

Cənubi Qafqaz Boru Kəməri-Yeni neft strategiyasının uğurla həyata keçirilməsi, neft sənayesinə geniş sərmayə qoyuluşu, neft əməliyyatlarında müasir texnika və texnologiyanın tətbiqi nəticəsində 1999-cu ildə nəhəng "Şahdəniz" qaz-kondensat yatağı aşkar edildi-bununla XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanın neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaradıldı. 2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı Şahdəniz qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil oldu. Uzunluğu 690 km olan Cənubi Qafqaz Boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan (BTC) xam neft kəməri ilə eyni marşrutdadır və Türkiyədə bu ölkənin qazpaylama sisteminə birləşdirilmişdir. Bakı-Tbilisi-Ərzurum kəmərin fəaliyyətə başlaması Azərbaycanı ilk dəfə qaz ixracatçısına çevirdi.

Cənub Qaz Dəhlizi -2014-cü ilin sentyabrında Səngəçal terminalında təməli reallaşan "Cənub" qaz dəhlizi 20 illik uğurlu enerji siyasətinin məntiqi davamı idi-o Bakı-Tbilisi-Ceyhan boru kəmərindən iki dəfə uzundur, Azərbaycana əlavə dividendlər gətirməklə, ölkə iqtisadiyyatını daha da sürətlə inkişaf etdirəcəkdir. Avropanın enerji təhlükəsizliyinin həllində mühüm faktor olan Cənub Qaz Dəhlizi çoxtərəfli tərəfdaşlığı genişləndirərək beynəlxalq əməkdaşlıq prosesini sürətləndirəcəkdir. Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan TANAP qaz kəməri 2018-ci ildə Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilmişdir. Trans Anadolu Qaz Boru Kəməri təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcəkdir. Ümumi uzunluğu 1850 kilometr olan TANAP-ın 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. Boru kəmərinin diametri 1,4 metrdir. Kəmərin buraxılış qabiliyyəti 2026-cı ildə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulmuşdur. Trans-Adriatik Boru Kəməri (TAP) Xəzər regionundan qazın Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyanın cənubuna, oradan isə Qərbi Avropaya nəqlini nəzərdə tutur.

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma etmiş, sevincli, kədərli günlərdə də biri digərinin yanında olmuşdurlar. Dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsasli təmələ sahib olan Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsi, yeni enerji strategiyasının əsasıdır. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir-eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir.

Dünya etiraf edir ki, bu gün Azərbaycan və Türkiyənin enerji siyasəti Avrasiya üçün alternativsiz siyasətdir. Sürətlə qloballaşan dünyada ikinci bir mühüm proses elə eyni sürətlə davam edən qütbləşmədir. Tərəfdar ölkələrin sayını artırmaqla öz mövqelərini qorumağa çalışan böyük mərkəzlər yeni formalaşan münasibətlər sferasında kənarda qalmaq istəmirlər. Düzgün siyasət, iqtisadiyyatın şaxələnməsi, hərbi qüdrət kimi amillər isə bütün bu prosesdə həlledici imkanlara sahibdir. Hazırda bütün dünya dövlətləri mövcud böhranlardan çıxış yolları axtarır-böhranlar isə zəncirvari qaydada artmaqla bir-birini dərinləşdirir. Enerji, qida və xammal çatışmazlığı kimi məsələlər qeyd olunan böhranlar silsiləsində öndə dayanır. Böhranları yaradan səbəblər müharibə və münaqişələr, qarşıdurmaların daşınmaya mənfi təsiri, xammal tədarükündə mövcud pozuntulardır. Hazırda dünyanın üz-üzə qaldığı enerji, qida və xammal çatışmazlığı böhran həddindədir-bu böhranları aradan qaldırılmasında sülh və sabitlikdən sonra enerji sahəsi birinci yerdə dayanır.

Enerji siyasətindən danışırıqsa, Azərbaycan-Türkiyə tərəfdaşlığı xüsusi qeyd olunmalıdır-bu gün Azərbaycan-Türkiyə əlaqələri regionda yeni reallıqlar yaradır ki, bunun da ən mühüm cəhətlərindən biri enerji sahəsindəki uğurlu tərəfdaşlıqdır. İkitərəfli münasibətlərimizdə Ümummilli liderin xidmətləri xüsusi qeyd olunmalıdır-1991-1993-cü illərdə Ulu Öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi Türkiyə ilə ikitərəfli əlaqələrin inkişafına nail olmuşdursa, müstəqil Azərbaycana rəhbərliyi dövründə isə dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirmişdir. Ulu öndər 2000-ci il dekabr ayının 29-da Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti zamanı demişdir: "1993-cü ilin yayından başlayaraq Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabilidir... Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir".

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən qısa müddət sonra dövlətimizin suverenliyini ilk olaraq Türkiyə Respublikası tanıdı və 1992-ci ildə hər iki ölkənin diplomatik missiyaları fəaliyyətə başladı. Bir xalqın, bir millətin iki dövləti arasında qarşılıqlı əlaqələr inkişaf edərək birlik, həmrəylik mücəssəməsinə çevrildi. İki qardaş ölkə gələcəyə doğru birgə inamla addımladılar. 1992-ci il 1-3 may tarixlərində Türkiyə Prezidenti Turqut Özalın ölkəmizə, 1994-cü il 8- 11 fevralda isə Ulu öndərin Türkiyəyə ilk rəsmi səfəri ikitərəfli əlaqələrin uğurlu başlanğıcı oldu. Sonrakı mərhələlərdə yüksələn xətlə inkişaf etdirilən münasibətlər Türkiyə ilə Azərbaycanı bugünkü müttəfiqlik səviyyəsinə çatdırdı. Dostluğun, qardaşlığın Türkiyə-Azərbaycan örnəyi türk dünyasına qarşılıqlı dəstəyin bariz nümunəsidir. Bu gün bütün türk dünyası siyasi, iqtisadi problemlərin həllində gücünü, potensialını ortaya qoyaraq sarsılmaz birlik nümayiş etdirir. Xalqların inteqrasiyası, dünya birliyi qarşısında ümumtürk mövqeyi türk dünyasının daha əzəmətli, qüdrətli olmasına xidmət edir.

Türkiyə Azərbaycanın ən böyük ticarət partnyorlarındandır-Azərbaycanın Türkiyəyə ixracında əsas pay enerji sektoru ilə bağlıdır. 2022-ci ildə Türkiyəyə 2 milyard 208 milyon dollar dəyərində təbii qaz satılmışdır-bu, Azərbaycanın toplam idxalının 62 faizi deməkdir. Neft də diqqətə alınsa, Azərbaycanın Türkiyəyə ixracında enerji sektorunun payı 76 faizə yüksəlir. Elektrik enerjisi (79.2 milyon dollar) və alüminium (61.3 milyon dollar) da Azərbaycanın Türkiyəyə ixrac etdiyi əsas məhsullar arasındadır. Türkiyənin bu gün Avrasiyada əhəmiyyətini artıran daha bir vacib faktor onun enerji mərkəzinə çevrilməsidir. Ümumiyyətlə, proseslərin gedişi göstərir ki, Türkiyə enerji qiymətlərinin müəyyən edilməsi, nəqli sahəsində getdikcə həlledici rol oynamaqdadır. Sözügedən prosesdə Türkiyənin mövqeyinin güclənməsinə təkan verən əsas ölkələrdən biri qismində isə Azərbaycan çıxış edir. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daha da genişlənir. Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Ümummilli lider 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Prezidenti kimi Heydər Əliyevin Türkiyəyə ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi-səfər zamanı 16 mühüm sənəd imzalandı. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. 1995-ci il aprelin 12-də Türkiyə Respublikasının Baş naziri xanım Tansu Çillərin Azərbaycana səfəri zamanı Türkiyənin neft konsorsiumundakı 1,75 faizlik payının Azərbaycan neft payının hesabına 6,75 faizə qədər artırılması haqqında müqavilənin imzalanması iki dövlət arasındakı münasibətlərin ən real göstəricisi olaraq həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edir. İki dövlət rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasındakı münasibətlərin daha da inkişaf etdirilməsinə zəmin yaratdı. Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin həyata keçirilməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Avropa ilə Şərq ökələri arasında nəqliyyat kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən "Avropa-Qafqaz-Asiya Transqafqaz" nəqliyyat dəhlizi (TRASEKA) proqramının dəstəyi ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpasına dair Bakıda keçirilmiş beynəlxalq konfrans Azərbaycanla-Türkiyə arasında strateji tərəfdaşlığın genişlənməsinə yeni stimul verdi. Həm bu, həm də digər iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində atılan addımlar, xüsusilə Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan-Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsinə xidmət edir.

Azərbaycanın neft strategiyasının həyata keçirilməsi regional sabitliyin möhkəmləndirilməsi və qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Xəzər regionunda fəal mövqeyi ilə seçilən və Azərbaycanın bütün məsələlər üzrə müttəfiqi hesab edilən Türkiyə əsas diqqətini respublikamızın neft ehtiyatlarının xarici bazarlara marşrutu üzərinə cəmləşdirmişdir. Ümummilli liderin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə, eləcə də çox uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirərək strateji müttəfiqlik səviyyəsinə qalxmasında əhəmiyyətli rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu il iyunun 7-8-də Türkiyəyə işgüzar səfəri zamanı iki dövlət arasında enerji sahəsində əməkdaşlığa dair bir sıra mühüm sənədlər imzalandı. Azərbaycandan Türkiyəyə və Türkiyə ərazisindən təbii qazın satışı və nəqlinə dair Bəyannamə, təbii qazın satışı və nəqlinə dair Anlaşma Memorandumunun imzalanması ölkələrimizin enerji sahəsində əməkdaşlığının yeni bir mərhələsi kimi qiymətləndirilir. Bu hadisə indiyə kimi iki qardaş dövlətin qlobal enerji və nəqliyyat layihələrinin reallaşdırılması istiqamətində birgə göstərdikləri səylərin və əməkdaşlığın daha da genişlənməsinin göstəricisidir.

2011-ci il oktyabrın 25-də İzmir şəhərində keçirilən Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının ilk toplantısı çərçivəsində Türkiyə ilə Azərbaycan arasında qaz tranziti, qaz təchizatı və qaz alqı-satqısına dair sazişlər imzalanmışdır. Qaz tranzitinə dair imzalanan saziş Cənub dəhlizi çərçivəsində Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutur. Bakı-Tbilisi-Ceyhan xam neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərləri və Bakı-Tbilisi-Qars dəmiryolu kimi nəhəng layihələrdən sonra Trans-Anadolu (TANAP) təbii qaz boru xətti layihəsi də ölkələrimizin regionda və dünyada nüfuzunu artırmışdır. TANAP layihəsinə görə Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olmaqla yanaşı, eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcəkdir.

*Ardı növbəti sayımızda*

# “Nuri-həqq daima yanar, sönməz!...”

Naxçıvan şəhərində qədim Əlixan məhəlləsində yerləşən dahi şair-dramaturq Hüseyn Cavidin Ev muzeyinin yaradıcısı, 40 ilə yaxın direktoru olmuş Bəhruz Axundovla müsahibəmiz onun yeni nəşr olunmuş ”Nuri-həqq daima yanar, sönməz!...” adlı kitabının nəşrindən sonrakı görüşümüzdə oldu. Kitabı dönə-dönə oxusam da, yenə də əlimdən yerə qoymaq istəmədim. Üz tərtibatı dil açıb danışır, çox mətləbləri çatdırırdı. Səhifələr və albom hissəsindəki şəkillər isə tarixin donmuş anlarını canlandırırdı.



01 oktyabr 2003-cü il. Saat 23:45 radələrində Turan xanımla məqbərəyə gəldik. Mən işıqları yandırdım, sərdabəyə düşdük. Saat 00:00 tamam oldu, 1-ə bir dəqiqə işləyəndə Azər Turanla mən Turan xanımı təbrik etdik. Turan xanım bizə yaxınlaşıb bir əliylə mənim, bir əliylə Azərin əlindən yapışdı və dedi:

Nə yaxşı ki, altımız da bir yerdəyik. Mən Turan Xanıma fikir verdim, onun sifətini indiyədək belə görməmişdim. Gözlərində sevinc dolu maraqlı bir görüntü var idi. 80 yaşını əzizləri ilə bir yerdə qeyd edirdi. Tez-tez gah atasının, gah anasının, gah da Ərtoğrolun qəbirlərinə baxırdı. Azərlə mən bir neçə dəqiqəliyə Turan xanımı əzizlərinin yanında tək qoyub cıxdıq...” Bəhruz müəllim, kitabdakı 120-ci səhifədə bu sətirləri oxuduqca bir qüdsi duyğular məni ele sardı ki, qeyri-ixtiyari ayağa qalxıb ”Cənnətməkan olsunlar”- dedim və göz yaşlarımı tuta bilmədim. Əslində bu çox həssas bir an idi. Turan xanımın bununla da Naxçıvana son səfəri oldu. Yəqin ki, o özü bunu hiss etmişdi və bu dünyada əzizlərinə son borcunu verməyə, anadan olduğu günü onlarla birlikdə olmağa gəlmişdi.

*- Bəhruz müəllim, sizlər o duyğulu anı necə yaşadınız? Sizcə Turan xanım əzizləri ilə tək qalanda onlara nə deyəcəkmiş?*

Bilirsiniz mən ömrümün 40 ilə yaxınını Cavid muzeyinin yaradılmasına, o yolda axtarışlara, hər bir eksponatın tapılmasına və qorunmasına, repressiyalardan çıxaraq süzülüb gələ bilmiş hər şeyin haqqını almasına həyəcan və arzularla xidmət etmişəm. Cavid ruhunu o məkanda hiss edərək oraya məbəd kimi baxmışam. Turan xanım bu yolda sanki qibləgahım idi. Onun əzmi, çalışmaları, atasının əsərlərini ilmə-ilmə oxuyub təmizlənməsi uğrunda mübarizəsini görmüşəm. Turan xanımla əzmimiz, amalımız bir idi. Mən ondan güc alırdım, onun cəfakeşliyinə, mətinliyinə, zəkasına heyran idim. O da məni qiymətləndirir, əmanətlərə göz bəbəyim kimi yanaşdığımı bilirdi. Turan xanım ömrünü axıra qədər müqəddəs bildiyi atasının zəngin irsinin toplanmasına, öyrənməsinə, qorunmasına və qüsursuz olaraq xalqa qaytarılmasına nail oldu. Mənə elə gəlir ki, Turan xanım həmin gün, o dəqiqələrdə əzizlərinə bu dünyadakı missiyasının başa çatdığını, onları pərən-pərən salmış qanlı tarixin əlindən alıb bir yerə toplamağa nail olduğunu və şərəflə onlara qoşulmağa hazır olduğunu bildirmək istəyirdi. Bu Turan xanımın ailəsinə sanki son hesabatı idi.

*- Bəhruz müəllim, necə oldu ki, bu kitabı yazdınız?*

Bu kitab yarım əsrlik bir salnamədir. Kitabda müxtəlif ziyalı təbəqələrinə Cavidsevər insanlara, dəqiqliklə göstərilmiş hadisə və görüşlərə rast gəldikcə xalqımızın nə qədər qədirbilən olduğunu görürük. Doğrusu Turan xanım rəhmətə gedəndən sonra böyük bir sima, arxa, dost itirmişdim. Məsuliyyətim isə ikiqat artmışdı. Onun əmanətlərini qorumaq, məsləhətlərini davam etdirmək lazım idi.

O ailənin ab-havasını ev muzeyində yaşatmaq, ruhlarını şad etmək, muzeyin ekspozisiyasını zənginləşdirmək-hər sey buna xidmət edirdi. Bir arzum var idi ki, məndən sonra bütün bunlar mənim duyğularımı yaşaya bilən, Cavidin əsərlərini oxuyaraq onu dərk etməyə çalışan, mənimsəyə bilən, ailəsinin qədir-qiymətini yüksəklərə qaldırıb ruhlarını şad edən insanların əlinə keçsin. Axı heç nə daimi deyil, nəsillər bir-birini əvəz edir. Nəhayət, o gün gəldi, mən muzeydən ayrıldım. Nə edəcəyimi bilmirdim. Günlər çox darıxdırıcı, mənasız keçirdi. Yaxın dostların məsləhəti və təkidi ilə muzeyin yaradılmasından son dövrə qədər, yəni sevdiyim işimdən azad olunana qədər gündəliklərimdə qeyd etdiyim xatirələri, hadisələri, tədbirləri və görüşləri xronoloji qaydada qələmə almağı qərara aldım və bunu tez bir zamanda başa çatdırdım. Mənə elə gəlir ki, bu kitab Cavidsevərlər üçün, Cavid yaradıcılığı ilə məşğul olan tədqiqatçılar üçün maraqlı olar. -

Doğrudur, Bəhruz müəllim. Sizin yazılarınız həm oxucu kütləsi üçün, həm də tədqiqatçılar üçün qiymətli materiallardır. Siz bu kitabı xatirə kimi işləsənizdə, oxuduqca hiss olunur ki, yenidən yaşayaraq yazmısınız. Bəzi hadisələri oxuyan zaman mən də özümü elə orada hiss edirdim. Məqbərənin açılışında biz şagirdlərimizlə orada idik. Həyəcanla Ümummilli Liderimiz Heydər Əliyevin gəlişini gözləyirdik. Çox hərarətli, maraqlı bir gün idi. Heydər Əliyev hamı ilə çox səmimi görüşürdü.

Onun özünün sevinci, sizin həyəcanınız, məhəllədəki insanların, məktəblilərin, qonaqların bir-birinə isti münasibəti.Hər şey çox gözəl idi.

- Bəli, H.Cavidin adının əbədiləşdirilməsində, cənazəsinin uzaq Sibirdən vətənə gətirilməsində, Turan xanımın arzularının yerinə yetirilməsində Heydər Əliyevin misilsiz xidmətləri olub. Mən bu haqda kitabda yazmışam. Qeyd edim ki, 1988-ci ildə Moskva şəhərində 1 ay Mədəniyyət İşçilərinin İxtisasartırma İnstitutunda muzey işi üzrə ixtisasartırma kursunda iştirak etdiyim zaman orada Kommunist rejimin tüğyan etdiyi bir vaxtda Heydər Əliyevin Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən vətəninə gətirilməsindən danışdım. Orada böyük bir sensassiya yarandı və İnstitutun rektorunun məsləhəti və mənim köməyimlə Cavidin cənazəsinin gətirilməsi ilə əlaqədar təqdim etdiyim fotoşəkillər əsasında ”Qayıdış” adlı sərgi təşkil olundu və Heydər Əliyevin bu böyük cəsarətindən və şücaətindən söhbətlər oldu. Bütün bunlar haqqında kitabda geniş əks olunmuşdur.

*- Bəhruz müəllim, sizin təbirinizlə desək, oktyabr ayı Cavidlər ayıdır. Bu haqda nə demək istəyirsiniz?*

Oktyabr ayı həqiqətən bu ailənin taleyində xüsusi izlər buraxmışdır. Oktyabr ayının 2-də Turan xanım, 22-də Ərtoğrol, 24-də isə dahi şair dünyaya gəlmişdir. 26 oktyabr 1982-ci ildə Cavidin nərşi uzaq Sibirdən vətəninə gətirilərək ana torpağa qovuşmuşdur. 29 oktyabr 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin qayğısı və iştirakı ilə ”Cavid” məqbərəsinin təntənəli açılışı olmuşdur. Bu ilin oktyabr ayında Turan xanımın anadan olmasının 100 illiyidir. Mən kitabın həmin vaxt ərsəyə gəlməsinə çalışdım ki, onun yubileyinə bir hədiyyəm olsun. Əslində oktyabr həm də mənim ayımdır. Çünki mən özümü bu insanla bir yerdə tapdım, ömrümü bu muzeydə şərəfli işə sərf etdim və Cavidlər ailəsinin qürurunu yaşadım.

*Sizə minnətdarıq, hər şey üçün sağ olun. Mənalı ömür yolunuz davamlı olsun.*

**Müsahibəni apardı:
Bektaşı Etimad**

## ”Gəncədə törədilən terror erməni vəhşiliyinin nümunəsi idi”

*HƏRBİ EKSPERT ŞƏRH ETDİ*

“3 il bundan əvvəl Ermənistan silahlı qüvvələrini tərəfindən Gəncə şəhəri oktyabr ayı ərzində 5 dəfə atəşə tutulmuşdur. İstifadə olunan ballistik və taktiki raketlərin zərbəsi nəticəsində Gəncə şəhərində 26 Azərbaycan vətəndaşı həlak olmuş, 175 nəfəri isə yaralanmışdır”. Bunu SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, erməni terroru nəticəsində Gəncənin mülki infrastruktura və şəhərin təsərrüfatına, binalara ciddi ziyan dəymişdi: ”Çox sayda avtomobil vasitələri sıradan çıxarılmışdır. Bütün bunların səbəbi isə ondan ibarət idi ki, Azərbaycan döyüş meydanında uğurlar əldə etdikcən erməni tərəfi və fərarilik sayı artırdı. Azərbaycana qarşı döyüşlərdə müqavimət potensialını itirən düşmən Azərbaycanın ən sıx əhali yaşayan və ikinci ən böyük şəhəri olan, lakin Qarabağla yaxından-uzaqdan əlaqəsi olmayan, əməliyyatlar zonasından tam kənarda yerləşən yaşayış məntəqəmizi atəşə tuturdular. Hesab edirdilər ki, Azərbaycan tərəfinin mülki əhalini arasında artan itkiləri hakimiyyətə qarşı etiraz aksiyalarına imkan verəcək və ictimaiyyətin etirazları fonunda da Azərbaycan hakimiyyəti Qarabağın düşməndən təmizlənməsinə son verəcək. Amma bu belə olmadı, nə Gəncə, nə də digər atəşə tutulan ərazilərimizdə yaşayan vətəndaşlarımız heç biri müharibənin dayandırılması haqqında kəlmə belə işlətmədi. Əksinə, Azərbaycan xalqı Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında daha da sıx birləşdi. Xalqımızın ordumuza dəstəyi birə beş artdı və nəticədə də Azərbaycan tərəfi həm Vətən müharibəsində zəfər qazandı, həm də erməni separatizmini əbədi və ömürlük məhv etdi. Azərbaycan qarşı raket zərbələrinə əmr verənlər və onunla da efirlərdə özlərini qəhrəman hesab edənlər Azərbaycan Respublikası ərazisindəki istintaq təcridxanalarında müxtəlif rəngli çay içirlər. Onların hamısı etdikləri cinayətlərə görə Azərbaycan qanunları qarşısında cavab verəcəklər. Buna kimsənin şübhəsi olmasın”.






***Gülyana***

## ”Müxalifət qüvvələri bu cür hərəkətlərlə gündəmə gəlmək istəyir”

*MÜNASİBƏT*

“Azərbaycan özünün ərazi bütövlüyünü tam bərpa edib. Azərbaycan yalnız ermənilər üzərində deyil, eyni zamanda ermənilərin arxasında duran və onlara dəstək verən böyük güclərin üzərində də sarsıdıcı qələbə qazanıb”. Bu fikirləri SİA-ya açıqlamasında Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib. O bildirib ki, Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi ermənilərin və onların havadarlarının xoşuna gəlmir: ”Lakin ən təəssüfedici məqam ölkəmizdə də bələlərinin olmasıdır. Ermənipərəst mövqe sərgiləyən, xüsusilə də müxalifət düşərgəsindən olan şəxslər Azərbaycanın əldə etdiyi qələbə ilə bağlı qərəzli çıxışlar edirlər. Əslində isə həmin şəxslər səslərini belə çıxarmamalıdırlar. Çünki torpaqlarımızın işğalı məhz onların xəyanətinin nəticəsi idi”.

Elşad Musayev qeyd edib ki, bu gün Azərbaycanın Dövlət bayrağının işğaldan azad edilən torpaqlarda dalğalanması sevindirici və qürurverici hal olsa da, müxalifət bu parlaq qələbəyə də qısqanclıqla yanaşır, zəfərimizə kölgə salmağa xidmət edən statuslar paylaşır: ”Çünki, onlar gündəmdə deyillər və bu cür hərəkətlərlə gündəmə gəlmək istəyirlər. Lakin Azərbaycan xalqı onların kim olduğunu çox yaxşı bilir və bu baxımdan da onlar cəmiyyətdə ciddi qəbul edilmirlər”.

# Qorxaqlar cəsarətli ola bilmir

**Düşmənçiliyin buynuzu olmur ki. Bütün zamanlarda dövlətə, xalqa, topluma asi olmaq ən ağır şəkildə cəzalandırılıb və bu gün də bu ittihamla yaşayan az adam azadlıqda gəzir. Erməni düşmənçiliyini bizim hüquq çərçivəmizdən kənarda -Ermənistanda və dünyanın başqa-başqa yerlərində edir. Bu, aydındır. Dünənə qədər ermənilər separatçı olaraq Qarabağdan da dişini qıcayırdı. Məşvərətdən, məsləhətdən anlamayan bu zatıqırıqlar sonunda bəlalarını buldular. Düşmənçilik yolunu tutan ermənilərin bir qismi ədalət məhkəmələri qarşısında cavab vermək sırasını gözləyir.**



Bəs, içimizdəki düşmənlərlə nə edək? Ötən əsrin 90-cı illərində ermənilərin torpaqlarımızdan pay qoparmaq iddialarına cəbhəçilər hakimiyyəti haray-həşirlə qamarlamaqla cavab verdilər. Sərhədlərimizdə, Qarabağımızda ermənilərin törətdikləri dəhşətləri görməzdən gəldilər, cavab "haqqını" sonraya saxladılar. Hətta erməni silahlılarının əlindən qaçan və paytaxta, digər rayonlara sığınan qaçqınlar barəsində cəbhəçi liderlərdən birinin "qoy bir az da gəlib şəhərə öyrəşsinlər" fikri hələ də qulaqlarımızda cingildəyir. Millətin faciəsinə bu qədər bəsit reaksiya verəndən daha nə gözləmək olardı? Sonra da gileylənirlər ki, biz cəmi-cümlətani bir il hakimiyyətdə olduq, amma bütün günahları bizdə görürlər.

Kimsə bu hadisələri kiminsə uydurmalarına, hansısa tarix kitabındakılara əsaslanıb yazdığımı düşünməsin, bütün baş verənlərə şəxsən şahidəm. Mənim kimi minlərlə azərbaycanlı o faciəli günləri bu gün də xatırlayır. Ermənilər torpaq, cəbhəçilər kreslo davasında idilər. Cəbhəçilərin bağışlanmaz bir günahı da var idi ki, o da insanların ümidlərini qırmaq, məhv etmək. İndi yutub TV-lərinə eninə-boyuna intervülər verən, Azərbaycanın qazandığı qələbələrə rişxəndlə yanaşan, Prezident İlham Əliyevin rəhbərliyi altında qazanılan möhtəşəm qalibiyyəti heçə endirməyə cəhd edən Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli və onlar kimi siyasi "maşa"lar arxaya boylansınlar, özlərinin bu xalq, dövlət üçün etdiklərini tərəzinin gözünə qoysunlar, iki ağsaqqal da gətirib məsləhətini dinləsinlər və utansınlar.

1993-cü ildə baş verən hadisələrdən, cəbhəçilərin hakimiyyətdən qovulmasından sonra düşünmək olardı ki, torpaqlarımızın işğal olunmasında, faciələrimizdə birbaşa günahkar olan AXC hakimiyyətinin üzvləri səslərini bir ömür çıxara bilməzlər. Amma gözləntilərimiz özünü doğrultmadı, 20 faizlik torpaqlarımız kimi, kreslolarını da itirən cəbhəçi liderlər sanki heç nə olmamış kimi siyasət meydanında bu dəfə müxalifətçi kimi yenidən zühr ediblər. Bu gün tv-lərdən düşməyən, şər maşınlarının ulduzuna çevrilən Əli Kərimli hər kəsi günahlandırır, özündən savayı. Partiyasını kim tərk edirsə ona "düşmən", "satqın" damğası vurur, özünü böyük "təftişçi" kimi təqdim edir. Əlindən bir iş gəlməyən, boğazdan yuxarı proqnozlar verən bu siyasət qəhrəmanı olaraqAzərbaycan hakimiyyətinin fəaliyyətini, nəyi düz, nəyi yanlış etdiyini yozmağa çalışır. İnsafən, Əlidə bu məsələ çox uğursuz alınır. Çünki, yozmasından da görünür ki, hələ də dövlətçilikdən, idarəçilikdən, milli maraqlardan çox uzaqdır, başına gələnlər, yaxud millətin başına gətirdikləri onlara dərs olmayıb, ağıllanmayıblar. Müxalifətçilik dövlətə, millətə, hakimiyyətə düşmən olmaq deyil. Müxalifətçilik yeri gələndə hakimiyyətdən də öndə olmağı bacarmaqdır.

Əli Kərimli və Gültəkin Hacıbəyli bu dəfə də Prezident İlham Əliyevin Xankəndidəki çıxışını hədəfə alıblar. El arasında tez-tez işlədilən bir cümlə var, "sanki bir-birinin ağzına tüpürüblər", tutuquşu kimi eyni cümləni təkrarlayıb durublar: "Bu qələbə xalqındır, hakimiyyətin, İlham Əliyevin deyil". İndi durub yenə yadlarına 1990-cı illəri salacağam, deyəcəklər "köhnə palan içi sökürsən", deməsəm də ölləm. Bu xalq ötən əsrin 90-cı illərində də həminki idi, cəsur, rəhbərini dinləyən, Vətən uğrunda canından keçən, ermənilərin anasını ağlar qoyan. Bəs nə oldu, hakimiyyət də, hökm də, bütün imkanlar da sizin AXC iqtidarında idi? Siz də Prezident Administrasiyasında oturub dövlətin bütün imkanlarından istifadə etməkdə sərbəst idiniz, topunuz, topxananız da öz yerində. Siz niyə o vaxt Qarabağda, sərhədlərimizdə tam möhkəmlənə bilməyən erməni silahlı birləşmələrinə qarşı heç olmasa kiçik bir əməliyyat belə keçirə bilmirdiniz? Bilərdiniz, amma buna sizin iradəniz, bacarığınız, səriştəniz yetmədi. Güvənciniz olmadı, çünki qorxaqlar cəsarətli ola bilmirlər.

Bu gün Vətən müharibəsində və ondan sonrakı əməliyyat və tədbirlərdə qazanılan qələbələrdə xalqımızın, əsgər və zabitlərimizin əməyi şəksizdir, danılmazdır. Amma onları bir arada tutan, bir yumruq kimi birləşdirən, zərbəni düşmənin təpəsinə endirən Sərkərdənin, Ali Baş Komandanın əməyini, zəhmətini danmaq ən azından nankorluq, şərəfsizlik və bütün mənalarda korluqdur. İlham Əliyev Müzəffər Sərkərdə olaraq xalqımızın 200 illik qələbə həsrətinə son qoyan Ali Baş komandandır. 200 il itirə-itirə gedirdik və bu itkilərdə keçmiş cəbhəçi hakimiyyətin də böyük payı var.

Əli Kərimlinin tv-lərdən birinə verdiyi "unikal" müsahibəsindən kiçik bir hissəsini sizlərə təqdim etmək istəyirəm. Oxuyun və özünüz də agah olun ki, AXC hakimiyyəti zamanı öndə gedənlərdən biri özünü bu dəfə Azərbaycanda ona müxalifətçiliyə iddialı partiya, yaxud siyasətçi kimi necə təqdim etmək, sırımaq istəyir: "İlham Əliyev haradan bilirdi ki, 20 il hakimiyyətdə olacaq. 17 ili boşa gedəcək. Ondan sonra, birdən indi erməni xalqı inqilab eləməzdi, Paşinyan hakimiyyətə gəlməzdi, Sarkisyanla Köçəryan qalardı hakimiyyətdə, onda o məqsədyönlü iş nə ilə qurtarardı?". Belə yerdə deyiblər, "heç hənanın yeridir?". Fakt budur ki, bütün bunlar artıq baş verib, ya zəlzələdən, ya da vəlvələdən. "Zəlzələ" üstə hakimiyyətə gələn Paşinyana Şuşada yallı getməyin sifarişini də biz verməmişdik. O özü qaşındı və cavabını aldı, növbəti il Şuşanın "Cıdır düzü"ndə Azərbaycan "Xarı bülbül" festivalı düzənlədi. Yəqin ki, Prezidentimizin "nəyi, necə və nə vaxt etməyi mən yaxşı bilirəm" kəlamını Əli Kərimli və onun yan-yandaşları ya eşitməyib, ya da eşitmək imkanları olmayıb. Ay Əli, siyasətçi, hələ dövlət başçısı o deməkdir ki, hadisələrə anında reaksiya verməyi bacarasan.

Bir də ki, Əlidə və o birilərində bu keyfiyyətlər yoxdursa, daha özümüzü niyə yorub bu qədər danışırıq ki...

**V.SALAH**



# Triumf!

**AFƏT**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev bir gün ərzində 6 yaşayış məntəqəsində şanlı üçrəngli bayrağımızı qaldırdı. Azərbaycanın müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısı Xankəndi şəhərinə səfər etdi. Bununla da iki yüz il ərzində torpaqlarımızda bu və ya digər şəkildə fəaliyyət göstərən erməni işğalçılığı və separatizminə son qoyuldu!**

Artıq Azərbaycan torpaqları tamamilə erməni işğalçılarından təmizlənib. Bu, həm də o deməkdir ki, şəhidlərimizin qanları yerdə qalmadı. Müzəffər Ali Baş Komandan həm xalqımızın başına gətirilən vəhşiliklərin qisasını aldı, həm də Ulu Öndər Heydər Əliyevin ATA vəsiyyətini yerinə yetirdi. Bu, qalibiyyət triumfunun bariz sübutudur!

Fakt həm də ondan ibarətdir ki, üçtərəfli birgə bəyannamənin 4-cü bəndinin rus kontingenti tərəfindən tam icra edilməməsi müəyyən problemlər yaradırdı. Daha dəqiq desək, proseslərin bir qədər uzanması suverenliyimizə müəyyən təhdidləri qüvvədə saxlayırdı. Lakin Azərbaycan dövləti tədbirli davranaraq, Vətən müharibəsindən sonrakı dövrdə hərbi potensialını daha da artırdı. Həm şərti sərhəddə, həm də Qarabağın rus kontingentinin müvəqqəti məsuliyyət zonasında bir sıra mühüm strateji yüksəklikləri Ermənistan ordusunun qalıqlarından azad etdi. Ərazimizə silah, sursat, hərbi texnika, mina və s. daşınması üçün istifadə olunan Laçın yolunu nəzarətə götürdü. Laçın sərhəd-keçid məntəqəsinin quraşdırılması Azərbaycanın ərazi bütölüyünün təmin etməsilə nəticələndi.

## Qarabağdakı separatçı rejim vəziyyətin gərginliyini maksimuma çatdırmaq üçün əlindən gələni etdi

Azərbaycan dəfələrlə erməni silahlılarını ərazimizdən çıxmağa səsləsə də, onlar qulaqardına vurdular. Qarabağdakı separatçı rejim vəziyyətin gərginliyini maksimuma çatdırmaq üçün əlindən gələni etdi. Bu azmış kimi, Azərbaycan torpaqlarında Azərbaycana qarşı bəyanatlar səsləndirildi, ərazi bütövlüyümüz şübhə altına alındı, suverenliyimizə qarşı fəaliyyətlər həyata keçirildi. Güc strukturlarımıza və mülki vətəndaşlarımıza qarşı hərbi təxribatların ardı-arası kəsilmədi.

Təxribatlarının miqyası genişlənəndən sonra Azərbaycan cəmi bir gün ərzində erməni separatizmini, onların hərbi infrastrukturunu darmadağın etdi, erməni silahlılarını çox ciddi itkilərə məruz qoydu və nəticədə separatçı rejim təslim olaraq, özü-özünü buraxdı. Beləliklə, Ermənistan ordusu, onun Qarabağdakı qalıqları son 45 ayda iki dəfə ağ bayraq qaldırdılar.

Azərbaycan separatçılarda mövcud olan silahları, texnikanı müsadirə etdi. Ölkənin qanunvericiliyinə uyğun yaşamaq istəməyən ermənilər üçün yollar açıq saxlanıldı. Bizim qanunlarla yaşamaq istəməyənlər ərazilərimizi tərk etdi, qalmaq istəyənlər isə Azərbaycanda yaşamağa davam edirlər. Ölkədə qalan erməni əhali üçün normal şərait yaradılıb.

Daha bir fakt budur ki, qayıtmaq istəyənlər üçün rəsmi Bakının şərtləri kifayət qədər sadədir: Azərbaycan vətəndaşlığını qəbul etmək. Lakin daha bir dəlil budur ku, bir çoxları Ermənistan tərəfindən maliyyələşdirilən separatçı qurumun hərbi birləşmələrində xidmət ediblər. Bu gün Azərbaycanın istintaq təcridxanalarında ifadə verən separatçı rejim rəhbərlərinin acı aqibəti bu kateqoriyadan olanlar üçün ibrətdir. Qanun qarşısında cavab verən cinayətkarlar isə mütləq öz cəzalarını alacaqlar!

# "Azərbaycanda rabitə ilə bağlı ciddi problemlər var"

*İQTİSADÇI MÜNASİBƏT BİLDİRİB*



"Nəqliyyat və rabitə sahəsində dövlət büdcəsi xərcləri kifayət qədər artıb. Bir sahə üzrə 58% bir xərc maddəsinin artması yüksək göstəricidir. Üstəlik dövlət büdcəsinin artım tempi də təxminən 1,6 milyard manatdır. Bu qədər kiçik artım əsasında nəqliyyat və rabitə xərclərinin 58%-ə qədər artımı çox ciddi bir rəqəmdir. Yəqin ki bu məbləğin bir hissəsi nəqliyyatın subsidiyalaşmasına xərclənəcəkdir". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı Akif Nəsirli deyib.

"Elə düşünürəm ki, əsas artım tempi rabitə sahəsi ilə bağlıdır. Hər halda Azərbaycanda çox ciddi rabitə problemləri var. Hazırda genişzolaqlı internetin çatışmadığı yaşayış məntəqələrimiz kifayət qədərdir. Rabitə əlaqəsi, informasiyanın alınması və ötürülməsi məsələsi hazırda yaşadığımız informasiya cəmiyyətində çox önəmlidir. Hesab edirəm ki, bu istiqamətdə xərclərin artırılması təqdirəlayiqdir. Amma məsələ burasındadır ki, yalnız vəsaitin ayrılması ilə iş bitmir. Biz həm də səmərəli xərcləmələr həyata keçirməliyik",- deyə o əlavə edib.

İqtisadçı sözlərinə davam edərək bildirib ki, təəssüf ki, Azərbaycanın dövlət büdcəsi hələ də ənənəvi şəkildə təqdim olunur: "Dövlət büdcəsinin təqdimatında müasir üsullardan istifadə edilməsi çox mühümdür. Bu halda xərclərin səmərəlilik səviyyəsi dərhal ölçülə bilir və növbəti illərdə müəyyən tədbirlər görülür. Vəsaitin ayrıldığı sahədə çox ciddi çatışmazlıqlar var. Arzu edərdim ki, bu sahədə ayrılmış vəsait səmərəli şəkildə istifadə edilsin".

**Ləman Sərraf**

# Yoxsul və ac dünya: ehtiyac hər gün artır

## Dünyanın 110 ölkəsində 6,1 milyard insandan 1,1 milyardı yoxsulluqla mübarizə aparır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**1992-ci il dekabrın 22-də yoxsulluqla mübarizə ilə bağlı qəbul edilən qərarla Birləşmiş Millətlər Təşkilatı (BMT) 17 oktyabrı Ümumdünya Yoxsulluqla Mübarizə Günü elan etdi. Bu kontekstdə BMT, təşkil etdiyi tədbirlərlə beynəlxalq ictimaiyyətin diqqətini məsələyə cəlb etməyə çalışır.**





### Yoxsulluq səviyyəsi getdikcə artır

BMTİP-nin 2023-cü il Qlobal Yoxsulluq İndeksinə əsasən, 110 ölkədə yaşayan 6,1 milyard insanın 1,1 milyardı yoxsulluqla mübarizə aparır. BMTİP-in 2020-2023-cü illəri əhatə edən "Fəaliyyətsizliyin insani dəyəri" adlı hesabatındakı məlumatlar aşağı gəlirli ölkələrdə yoxsulluğun səviyyəsinin 2020-2023-cü illər arasında daha da artdığını aşkarlayıb. Bu o deməkdir ki, daha 165 milyon insan gündə 3,65 dollardan az pula qane olaraq yaşayır.

Aşağı gəlirli ölkələrdə yaşayan bu 165 milyon insanın ən yoxsul 20 faizi hələ Covid-19 epidemiyasının təsirindən qurtula bilməyib. Yoxsulluqla mübarizə aparanların demək olar ki, yarısı Afrikada yaşayır. BMTİP yoxsulluqla mübarizə aparan insanların yaşadığı regionların qeydə alınmasının və lazımi yardım mexanizmlərinin yaradılmasının vacib olduğunu vurğulayır. Dünyadakı hər 6 yoxsul insandan 5-i Mərkəzi Afrika və ya Cənubi Asiyada yaşayır. Bölgələr üzrə bölgüyə nəzər saldıqda, Mərkəzi Afrikada yaşayanların 47,8 faizinin yoxsulluqla mübarizə apardığı halda, Cənubi Asiyada bu nisbətin 34,9 faiz olduğunu görmək olar.

Dünya Bankının məlumatına görə, Cənubi Asiya iqtisadiyyatının 2023-cü ildə 5,8 faiz artacağı gözlənilir. Bu artım tempinin epidemiyadan əvvəlkindən daha yavaş olduğu və inkişaf hədəflərinə çatmaq üçün kifayət etmədiyi qeyd edilir. "Cənubi Asiyanın İnkişaf Yenilənməsi: Daha Sürətli, Daha Təmiz İnkişafa Doğru" hesabatına görə, bu artımın 2024 və 2025-ci illərdə 5,6 faizə qədər yavaşlaması gözlənilir.

Bölgə iqtisadiyyatının böyük bir hissəsini öhdəsinə götürən Hindistan 2023-2024-cü illərdə 6,3 böyümə sürətinə sahib olsa da, turizm sektoru sayəsində Maldiv adalarının payının 2023-cü ildə 6,5 artacağı təxmin edilir.











### Borclar sosial rifahın artmasına imkan vermir

Banqladeşin iqtisadi inkişaf tempinin 2024-cü ildə 5,6 faizə enəcəyi proqnozlaşdırılsa da, Pakistanda bu nisbətin yüzdə 1,7 olacağı gözlənilir. Cənubi Asiya və Sub-Sahara Afrikası xaricində, yoxsulluqla mübarizə aparanların 65 faizi Çin, İndoneziya, Myanma, Sudan və Yəməndədir.

BMT-nin İnkişaf Proqramının Administratoru Achim Steiner qeyd edib ki, bu ölkələrin yüksək borc səviyyəsi qeyri-adekvat sosial xərclər və yoxsulluq səviyyəsinin artması ilə əlaqələndirilə bilər. "Bu gün 46 ölkə, ümumi dövlət gəlirlərinin 10 faizindən çox xalis faiz ödənişləri ödəyir", - Ştayner bildirib.

Borcların ölkələr üçün səhiyyə, təhsil və sosial müdafiə sahələrində əhalini qorumaqda getdikcə çətinləşdirdiyini bildirən Ştayner ehtiyacı olanlar üçün lazımi maliyyə strukturunun yaradılmasının vacibliyini vurğulayıb. "Son 3 ildə təhlükəsizlik şəbəkələrinə sərmayə qoya bilən ölkələr çox insanın yoxsulluq səviyyəsinə düşməsinin qarşısını ala biliblər", - dedi Steiner. BMTİP məlumat verdi ki, aşağı gəlirli ölkələr xalis faiz ödənişlərinə sosial yardımdan iki dəfə, səhiyyəyə isə 1,4 dəfə çox vəsait ayırırlar.

Qeyd olunub ki, borclar bu ölkələrdə təhsil xərclərinin 60 faizini təşkil edir.

### Yoxsulluğa qarşı mübarizədə atılan addımlar yetərli deyil

Dünya Bankının Cənubi Asiyada yoxsulluqla mübarizə üçün atdığı addımlara 2023-cü ildə regiona 10,1 milyard dollar yardım ayrılması daxildir. Bu yardım borcun idarə edilməsi, məşğulluq, sosial müdafiə, havanın çirklənməsi, iqlimə davamlılıq kimi məsələlər üzrə xərclənib.

Digər tərəfdən, 2030-cu ilə qədər yoxsulluğun aradan qaldırılması BMT-nin dünyanı qorumaq və rifahını təmin etmək üçün müəyyən etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədləri (SDG) sırasındadır. SDG yoxsulluğun qarşısını almaq üçün aşağı gəlirli ölkələri iqtisadi cəhətdən inkişaf etdirməyi hədəfləsə də, bunun ətraf mühitə zərər vermədən həyata keçirilməsinin vacibliyi vurğulanır.

BMTİP-in məlumatlarına görə, dünyada yoxsulluq nisbətinin artımını azaltmaq və gündə 3,65 dollardan az pulla yaşayan milyonlarla insanı yoxsulluqdan çıxarmaq 14 milyard dollardan bir qədər çox məbləğin, borcların ödənilməsinə, sosial ehtiyacların maliyyələşdirilməsinə ayrılması kimi addımlarla mümkündür.

***Lalə Mehralı***

# Dünyada ölüm sayına görə birinci yeri hansı xəstəliklər tutur?

## HƏKİM AYDINLIQ GƏTİRDİ



**"Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə dünyada ölüm sayına əsasən birinci yeri ürək-damar xəstəlikləri tutur. Əfsuslar olsun ki, ölkəmizdə də bu cür xəstəliklərdən əziyyət çəkən insanlarımızın sayı günü- gündən artmaqda davam edir". Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Talıblı deyib.**

Sübhan Hacıyev sözlərinə belə davam edib: "İnsan ürəyi 4 kameradan ibarətdir, 2 qulaqcıq və 2 mədəcik. Üreyin sağ qulaqcığında yerləşən sinus düyünü isə müntəzəm spontan impulslar yaradaraq ürəyin döyünməsini yəni sistola və diastola halına gəlməsini təmin edir. Sinus düyünündə müəyyən zədələnmələr olduqda isə impulsların ötürülməsində problemlər yarandığı üçün ürəkdə ritm pozğunluğu yəni aritmiya əmələ gəlir. Aritmiyaların növünə və intensivliyinə görə həyat üçün təhlükəli olub-olmaması müəyyən olunur. Bir çox aritmiyalar genetik olduğu kimi (məs. Bruqada sindromu, Uzun və ya Qısa QT sindromu və s.) sonradan qazanılmış da ola bilər (məs. Qulaqcıq fibrilyasiyası, Mədəcik taxikardiyası, Mədəcik fibrilyasiyası və s.) və nə yazıq ki, bu aritmiya növləri ani ölümlə nəticələnə bilir.

Ürək-damar xəstəliklərinin yaranmasında əsas səbəb artıq çəki, spirtli içki, tütün çəkmə və sairə pis vərdişlərdir ki, nəticədə ürəyin koronar arterialarında xolesterinlə kirəcləşmə və tromboza yol açır. Ən dəhşətlisi də ondan ibarətdir ki, bu cür insanlar ildə 1 dəfə check-up müayinələrdən keçmədikləri üçün ürəyin qapaq xəstəlikləri, ürəyin işemik xəstəliklərindən xəbərsiz olduqları üçün gözləmədikləri anda qəfləti ürək dayanmasından həyatlarını itirirlər.

Eyni zamanda bir çox inkişaf etmiş ölkələrdə təməl həyat dəstəyi proqramı qeyri tibb işçilərinə də keçirildiyi üçün insanlar ətrafında ürəkdayanması yaşamış xəstəyə ilkin tibbi yardımın necə göstərilməli olduğunu və təcili tibbi yardım briqadaları gələnə qədər necə həyatda saxlamaq mümkün olduqlarını öyrənirlər".

*Ayşən Vəli*





"SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Mövsümü olmayan meyvə-tərəvəz istehlakı immun sistemini zəiflədir"

## MÜTƏXƏSSİS DANIŞDI



"Qış fəslində qidalanma zamanı mövsümü meyvə-tərəvəzlərə üstünlük verilməlidir. Çünki mövsümü olmayan meyvə-tərəvəzlərin istehlakı immun sisteminin zəifləməsinə gətirib çıxarır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Ağa Salamov deyib.

Onun sözlərinə görə, meyvələrdən hazırlanmış kompot və tərəvəzlərdən hazırlanan pürelərin istehlakı məqsədəuyğundur. A.Salamov qeyd edib ki, immun sisteminin zəifləməsinin qarşısını almaq üçün rəngli və qazlı içkilərdən, həmçinin boş karbohidrat olan ağ çörəkdən uzaq durmaq lazımdır. Bunun əvəzinə tam buğda unundan hazırlanan çörəklər yeyilməlidir.

Qış aylarında xaş yeyilməsi immun sisteminin gücləndirilməsində mühüm rola sahibdir. Eyni zamanda yüngül zülal olaraq axşamlar balıq istehlak edilməsi də tövsiyə olunandır. Səhər yeməyində isə kənd yumurtası və ağartı məsullarına üstünlük verilməlidir. Bu cür kiçik nüanslara diqqət etməklə immun sisteminin zəifləməsinin qarşısını ala bilərik".

*Səbinə Hüseynli*

# Neymardan təhdid: Braziliya millisinin oyunlarını boykot edəcəm!



Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubunun hücumçusu Neymarla Braziliya Futbol Federasiyasının prezidenti Ednaldo Rodriqes arasında qalmaqal yaşanıb. Braziliyalı jurnalist Xose Karlos Araujo sosial şəbəkə hesabında yazır ki, Neymar Rodriqeslə mübahisə edib və onu təhqir edib. O, həmçinin Braziliya millisinin oyunlarını boykot edəcəyi ilə hədələyib. Buna səbəb DÇ-2026-nın seçmə mərhələsində Venesuela ilə keçirilən oyundan sonra yaranmış gərginlik olub. Futbolçu azarkeşlərin və rəhbərliyin münasibətindən narazı qalıb. Oktyabrın 13-də Braziliya millisi DÇ-2026-nın seçmə mərhələsinin 3-cü mərhələsində Venesuela millisi ilə heç-heçə edib. Görüş 1:1 hesabı ilə başa çatıb.



# ŞOK: Sumqayıtda batareya udan uşaq ölüb

Sumqayıtda valideyn nəzarətindən kənarda qalaraq batareya udan azyaşlı ölüb. SİA xəbər verir ki, 2022-ci il təvəllüdlü Qədirova Məryəm Qafur qızı ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Valideynlər onu əvvəlcə Sumqayıt Hospitalına aparsalar da, sonradan vəziyyətin ağırlaşdığını gördükdə, dərhal travmatologiya şöbəsinə yerləşdiriblər. Azyaşlının vəziyyəti ağır olduğundan reanimasiya şöbəsinə yerləşdirilib. Göstərilən tibbi yardımlara baxmayaraq, azyaşlı bu gün səhər müalicə aldığı xəstəxanada ölüb. Faktla bağlı araşdırma aparılır.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000